ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnal

# Scientific Research

International Scientific Journal

## ELM VƏ TƏHSİL TƏDQİQATLARI XI RESPUBLİKA ELMİ KONFRANSI

## RESEARCH IN SCIENCE AND EDUCATION XI REPUBLICAN SCIENTIFIC CONFERENCE

# ELMİ TƏDQİQAT
**Beynəlxalq Elmi Jurnal**

---

## ELM VƏ TƏHSİL TƏDQİQATLARI
**XI Respublika Elmi Konfransı**

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

# SCIENTIFIC RESEARCH
**International Scientific Journal**

---

## RESEARCH IN SCIENCE AND EDUCATION
**XI Republican Scientific Conference**

**(19.12.2025)**

**2025**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© tedqiqat.rek@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Leyla İMAMƏLİYEVA,** Bakı Slavyan Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Prof. Dr. Sədaqət HƏSƏNOVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qalib ŞƏRİFOV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Məsul katib**

**Assoc. Prof. Dr. Sevinc SADIQOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. İradə HÜSEYNOVA,** ARETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu / Azərbaycan
**Prof. Dr. Vaqif ABBASOV,** ARETN Akademik Y. H. Məmmədəliyev adına NeftKimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İlham ŞAHMURADOV,** ARETN Genetik Ehtiyatlar Institutu / Azərbaycan
**Prof. Dr. Dünya BABANLI,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Təranə HACIYEVA,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Səyyarə İBADULLAYEVA,** ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Bahadur QƏLƏNDƏROV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Toğrul XƏLİLOV,** AMEA Naxçıvan bölməsi / Azərbaycan
**Prof. Dr. Vaqif SULTANLI,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səbinə TARVERDİYEVA,** Bakı Slavyan Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Allahverdi CƏFƏROV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA,** Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İsmayıl MÜRSƏLOV,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV,** Xəzər Universiteti/ Azərbaycan
**Assoc. Prof. Dr. Taleh CƏFƏROV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asif MANAFOV,** AMEA Zoologiya İnstitutu/ Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elnarə Mehbalıyeva,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəlalə ZEYNALOVA,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fəxrəddin AĞAYEV,** Əkinçilik Elmi Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən HÜMBƏTƏLİYEV,** Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Aygün SULTANOVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

**Chairman**

**Prof. Dr. Leyla IMAMALIYEVA,** Baku Slavic University / Azerbaijan

**Vice-chairmen**

**Prof. Dr. Sadagat HASANOVA,** Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Galib SHARIFOV,** Azerbaijan State Pedagogical University / Azerbaijan

**Responsible secretary**

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA,** Azerbaijan State Pedagogical University/ Azerbaijan

**MEMBERS**

**Prof. Dr. Irada HUSEYNOVA,** Institute of Molecular Biology and Biotechnology of MSERA / Azerbaijan
**Prof. Dr. Vagif ABBASOV,** Institute of Petrochemical Processes named after Academician Y.H. Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Ilham SHAHMURADOV,** Institute of Genetic Resources of MSERA / Azerbaijan
**Prof. Dr. Dunya BABANLI,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Sayyara IBADULLAYEVA,** Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Ismayıl ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV,** Sumgayit Statet University / Azerbaijan
**Prof. Dr. Bahadur GALANDAROV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Toghrul KHALILOV,** Nakhchivan branch of ANAS / Azerbaijan
**Prof. Dr. Vagif SULTANLI,** Baku State University / Azerbaijan
**Prof. Dr. Fakhraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA,** Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi JAFAROV,** Azerbaijan State Pedagogical University /Azərbaycan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA,** Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Ismayil MURSALOV,** Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA,** Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV,** Azerbaijan State Agrarian University / Azerbaijan

**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA,** Sumgayit State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV,** Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh JAFAROV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Asif MANAFOV,** ANAS Institute of Zoology / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof.Dr. Elnara MEHBALIYEVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Shalala ZEYNALOVA,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Fakhraddin AGHAYEV,** Scientific Research Institute of Agriculture / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan HUMBATALIYEV,** Azerbaijan State Maritime Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Aygun SULTANOVA,** Nakhchivan State University / Azerbaijan

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 7-10
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 7-10
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Həcər Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
https://orcid.org/0000-0002-3223-427X
hacerhuseynova@mail.ru

## Korpus dilçiliyi və Azərbaycanda onun inkişafı

***Açar sözlər:*** *korpus dilçiliyi, milli korpus, elektron mətn bazası, tətbiqi dilçilik, Azərbaycan dili*
***Keywords:*** *corpus linguistics, national corpus, electronic text base, applied linguistics, Azerbaijani language*

Korpus dilçiliyi (ing. corpus linguistics) – dilin tədqiqində kompüter dəstəyi ilə hazırlanmış linqvistik verilənlər bazasından istifadə edən elmi sahədir. Bu sahə 20-ci əsrin ikinci yarısından başlayaraq, dilin empirik və statistik əsaslarla öyrənilməsində mühüm rol oynamağa başlamışdır. Müasir dövrdə dünya dilçilik elminin ən dinamik inkişaf edən istiqamətlərindən biri olan korpus dilçiliyi Azərbaycanda da son illərdə diqqət mərkəzinə çəkilmişdir.

*1.Korpus dilçiliyinin mahiyyəti.* Korpus – müəyyən məqsədlə seçilmiş və sistemləşdirilmiş mətnlərin elektron bazasıdır. Korpuslar müxtəlif növlərdə olur: Milli dil korpusları (milli yazı dili əsasında); Lüğət korpusları (məsələn, sinonimlər, antonimlər üzrə); Tematik və janr korpusları (elmi, publisistik və s.). Korpus dilçiliyinin əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir: Kəmiyyətə əsaslanan analiz; Real mətnlər üzərində

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 7-10
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 7-10
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

tədqiqat; Dilin tezlik, kollokasiya, sintaktik struktur kimi xüsusiyyətlərinin avtomatlaşdırılmış şəkildə öyrənilməsi (Biber et al., 1998).

*2.Korpus dilçiliyinin tətbiq sahələri* olduqca çoxşaxəlidir. Dilçiliyin bütün sahələrinə və şöbələrinə tətbiq etmək mümkündür.

a) Leksikologiya: real kontekstdə sözlərin işlənmə tezliyi və mənaca spektri;

b) Sintaksis və morfologiya: cümlə strukturlarının statistik təhlili;

c) Tərcümə və leksik uyğunluqlar: paralel korpuslar vasitəsilə tərcümə ekvivalentlərinin seçilməsi;

d) Tədris: xarici dil öyrənənlər üçün tez-tez istifadə olunan ifadələrin müəyyənləşdirilməsi;

e) Lüğətçilik və leksikoqrafiya: sözlərin tezliyi, mənaları və kontekstlərdə istifadəsi real mətnlər əsasında müəyyən olunur. Yeni sözlərin və ifadələrin leksikona daxil edilməsi üçün əsas verir.

ə) Tərcümə və terminologiya: paralel və ikidilli korpuslar vasitəsilə tərcümə ekvivalentləri müəyyən edilir. Terminoloji uyğunluq və tərcümə sabitlikləri təhlil olunur.

f) Dil tədrisi: dil öyrədənlər və öyrənənlər üçün tez-tez işlənən ifadə və struktur nümunələri təqdim edir. Real istifadəyə əsaslanan dil materialları ilə dərslik və vəsaitlərin hazırlanmasına kömək edir.

g) Sintaksis və morfologiya təhlili: cümlə quruluşları, morfoloji formalar və onların tezliyi araşdırılır. Sintaktik variasiyalar və normativlik dəyərləndirilir.

ğ) Stilistika və üslubiyyat: müxtəlif üslublarda (elmi, publisistik, bədii və s.) dil vahidlərinin işlənmə xüsusiyyətləri öyrənilir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

h) Sosiolinqvistika və dialektologiya: korpuslar vasitəsilə regional şivələr, sosial dəyişkənliklər və dialekt fərqləri təhlil edilir.

x) Süni intellekt və kompüter linqvistikası: mətn analizi, avtomatik tərcümə, səsli köməkçilər, çatbotlar və axtarış sistemləri dil modeli kimi istifadə olunur.

ı) Dildaxili və dillərarası müqayisəli tədqiqatlar. Eyni mətnlərin müxtəlif dillərdəki versiyaları müqayisə edilir. Dillərarası struktur, semantika və üslub fərqləri aşkarlanır. Süni intellekt və NLP: Dil modellərinin öyrədilməsi üçün mətn bazası kimi. Buradakı NLP – Natural Language Processing (Təbii Dilin Emalı) deməkdir. Bu, kompüterlərin insan dilini başa düşməsi, təhlil etməsi və cavab verməsi ilə məşğul olan süni intellekt sahəsidir.

NLP-nin əsas funksiyaları: Avtomatik tərcümə (məs: Google Translate); Səsli köməkçilər (məs: Siri, Alexa); Çatbotlar; Avtomatik mətn təhlili və mətn generasiyası; Sentiment analizi (müsbət/mənfi fikir təhlili); Sual-cavab sistemləri (məs: ChatGPT); Korpus dilçiliyi NLP üçün mətn bazası rolunu oynayır – yəni kompüterlər dili öyrənmək üçün bu real mətnlərdən istifadə edir.

*3.Azərbaycanda korpus dilçiliyinin vəziyyəti.* Azərbaycanda korpus dilçiliyinin elmi əsaslarla inkişafı 2000-ci illərin əvvəllərinə təsadüf edir. İlk təşəbbüslər əsasən fərdi tədqiqatlar və tərcümə sahəsində tətbiqlərlə bağlı olmuşdur. Bu sahədə mövcud olan layihələr də vardır. Məsələn; Azərbaycan Milli Korpusu (AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən hazırlanır) – bu korpus 1 milyondan artıq sözü və müxtəlif üslubda olan mətnləri əhatə edir. Tədris məqsədli korpuslar da hazırlanır və bunların hazırlanması zəruridir. Bəzi universitetlərdə (məsələn: ADU, BDU) tələbələr üçün hazırlanan təlim korpuslarını nümunə göstərmək olar. Eyni zamanda qeyd etmək

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

lazımdır ki, bu sahədə problemlər də çoxdur. Məsələn: - Elektron mətnlərin azlığı; - Texniki infrastrukturun məhdudluğu; - Korpusların açıq istifadəyə təqdim edilməməsi; - Metadatanın natamamlığı və axtarış mexanizmlərinin zəifliyi

*4.Korpus dilçiliyinin inkişaf perspektivləri nədən ibarətdir?*
- Normativ və açıq mənbəli korpusların yaradılması. Dil üzrə mütəxəssislər, proqramçılar və pedaqoqların iştirakı ilə açıq istifadəyə verilən milli korpusların yaradılması vacibdir. Bu, dilin dinamik müşahidəsini və tədrisini asanlaşdıracaq.

- Annotasiya sistemlərinin təkmilləşdirilməsi. Korpusların morfoloji, sintaktik və semantik etiketləndirilməsi ilə dilin daha dərin səviyyədə təhlili mümkündür. - Multikorpuslu yanaşma və süni intellekt inteqrasiyası. Tədqiqatlarda müxtəlif dillərdə paralel korpuslardan istifadə süni intellekt əsaslı tətbiqlərdə tərcümə keyfiyyətini və avtomatlaşdırılmış təhlili yüksəldə bilər; - Tədris və tədqiqatda geniş istifadə. Universitet proqramlarında korpus dilçiliyi fənni ayrıca tədris edilməli, tələbələrə tətbiqi bacarıqlar öyrədilməlidir.

Korpus dilçiliyi müasir dil elminin empirik əsaslı tədqiqat istiqamətidir və Azərbaycan dilçiliyində də bu sahənin inkişafı üçün real potensial mövcuddur. Bunun üçün həm infrastrukturun, həm hüquqi bazanın gücləndirilməsi, həm də mütəxəssis hazırlığı zəruridir. Azərbaycan dili üçün milli korpusların yaradılması və istifadəyə verilməsi, dilin həm tarixi, həm də müasir dinamikasının araşdırılmasına şərait yaradacaqdır.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Ayten Sadigova**
Azerbaijan Technical University
PhD in Philology
https://orcid.org/0009-0005-7591-2922
sadiqovayten@gmail.com

# Modern Educational Innovations: Strategies for Effective Teaching and Learning

***Keywords:*** *pedagogy, innovation, education, technology, methodology, student development*
***Açar sözlər:*** *pedaqogika, innovasiya, təhsil, texnologiya, metodika, şagird inkişafı*

The article examines the implementation of pedagogical innovations in modern education and their influence on teaching quality and student development. The integration of digital technologies and new instructional methods enhances the effectiveness of learning, promotes creativity, analytical thinking, and collaboration among students. The study also explores how innovations contribute to teachers' professional growth and the improvement of educational outcomes. Furthermore, it discusses the role of formative assessment and educational technologies in creating dynamic, student-centered learning environments.

*Types of Pedagogical Innovations.* Technological innovations involve integrating digital tools into instruction. Platforms such as Google Classroom, Kahoot, and Quizizz support independent learning, collaboration, and assessment (Johnson et al., 2021). Artificial intelligence systems personalize learning pathways and provide adaptive feedback. Gamified learning apps increase motivation, while virtual simulations

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

allow safe, cost-effective experimentation. These tools enhance cognitive engagement and support diverse learning needs (Clark, 2019).

*Methodological Innovations.* Methodological innovations transform traditional pedagogical approaches. Project-Based Learning (PBL) and Problem-Based Learning encourage teamwork, creativity, analytical reasoning, and real-world application of knowledge (Bell, 2020; Thomas, 2020; Anderson, 2021). Flipped classrooms and blended learning approaches combine online and face-to-face instruction, maximizing active learning time and accommodating different learning styles. In these models, teachers act as mentors, guiding exploration rather than simply transmitting knowledge (Dewey, 2018).

These innovations support holistic growth – cognitive, emotional, and social. Debates, research assignments, and reflective practices help students strengthen communication, independent thinking, and metacognitive skills (Hattie, 2020). Such environments foster responsibility, resilience, and collaboration, preparing learners for lifelong learning and real-world challenges.

*Educational Technologies and Assessment.* Educational technology enhances learning accessibility and flexibility, offering multimedia content, virtual lessons, and simulations that simplify complex concepts. Digital tools also enable inclusivity and self-paced learning. During the COVID-19 pandemic, virtual education platforms demonstrated the critical role of technology in ensuring learning continuity (Johnson et al., 2021).

Formative assessment remains a key component of modern pedagogy. Digital assessment systems provide instant feedback and support data-driven decision-making. Digital portfolios and

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

adaptive analytics help learners track progress, set goals, and take ownership of the learning process (Black, Wiliam, 2019).

*Practices and Trends in Education.* International examples, such as Finland, Singapore, and South Korea, highlight the positive effects of integrating technology and experiential learning models (Bell, 2020). In Azerbaijan, programs such as STEAM and Digital Skills represent major steps toward transforming the education system (Mammadov, 2022). These initiatives encourage creativity, interdisciplinary learning, and innovation.

Implementation of innovations requires investment in teacher training, technological infrastructure, and monitoring mechanisms to ensure long-term success and sustainability.

## References

1. Anderson, J. (2021). *Innovative Education Practices*.
2. Bell, S. (2020). *Project-Based Learning in Schools*.
3. Black, P., Wiliam, D. (2019). *Assessment and Classroom Learning*.
4. Clark, R. (2019). *Technology in Education: Tools and Trends*.
5. Dewey, J. (2018). *Democracy and Education*.
6. Hattie, J. (2020). *Visible Learning for Teachers*.
7. Johnson, L., Adams Becker, S., Estrada, V., Freeman, A. (2021). *The NMC Horizon Report*.
8. Mammadov, R. (2022). *Innovative Education in Azerbaijani Schools*.
9. Thomas, J. (2020). *A Review of Project-Based Learning*

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 14-18**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 14-13**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Севиндж Садыхова**
Азербайджанский Государственный Педагогический Университет
доктор философии по филологии
https://orcid.org/0009-0004-5966-6955
sevinc.sadixova7070@gmail.com

# Поэтика судьбы и художественный мир Владимира Набокова

***Ключевые слова:*** *культурная память, творческий путь, английский язык, наследие, Нобелевская премия*
***Açar sözlər:*** *mədəni yaddaş, yaradıcılıq yolu, ingilis dili, irs, Nobel mükafatı*
***Keywords:*** *cultural memory, creative path, English language, heritage, Nobel Prize*

*Владимир Владимирович Набоков* – человек, для которого мир был одновременно удивительным и противоречивым. Его считают классиком русской литературы, хотя значительную часть жизни он творил на английском языке. Восемь раз его номинировали на Нобелевскую премию, но вручена она так и не была.

*Детство и юность*: Владимир Набоков родился в Санкт-Петербурге, в старинной аристократической семье, богатой и многочисленной, 10 (22) апреля 1899 года. Позднее он предпочитал отмечать день рождения 23 апреля. Он стал первенцем в семье известного юриста и видного деятеля партии кадетов Владимира Дмитриевича Набокова (1869–1922) и Елены Ивановны Набоковой (1876–1939), дочери промышленника Рукавишникова. Позднее в семье

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 14-18
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 14-13
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

появились ещё четверо детей: Сергей, Кирилл, Ольга и Елена.

Дом Набоковых был пронизан англоязычной атмосферой: Владимир утверждал, что выучил английский язык раньше, чем русский. В доме появлялись изысканные вещи, привезённые из английских магазинов Петербурга, и для мальчика Великобритания казалась настоящей сказкой. Детство Владимира было безмятежным, даже избалованным, и эти воспоминания помогли ему переживать сложности в эмиграции.

Следует подчеркнуть, что Набоковы уделяли детям всестороннее образование. В 11 лет Владимир поступил в Тенишевское училище, славившееся прогрессивными педагогами. Однако сам писатель вспоминал об учебе с прохладцей: она мешала его увлечениям книгами и энтомологией. Страсть к бабочкам возникла в семилетнем возрасте и сохранилась на всю жизнь.

В 14 лет появляются первые стихи юного Владимира. Его первая любовь, описанная в романе «Машенька» и автобиографической беллетристике «Другие берега», стала толчком для новых стихотворений. Он даже выпустил собственный поэтический сборник, который позже называл «исключительно плохим».

Жизнь в эмиграции: после революции 1917 года семья Набоковых переехала в Крым. Там Владимир продолжал писать стихи и в начале 1918 года опубликовал сборник, созданный совместно с одноклассником А.Н.Балашовым. Крым не произвел на него впечатления – всё казалось чуждым. В апреле 1919 года семья навсегда покинула Россию на греческом судне «Надежда». Несколько недель они провели в Греции. Вскоре у семьи закончились средства к существованию, и они были вынуждены продавать

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

вывезенные драгоценности. В мае 1919 года семья переехала в Англию, страну детских мечтаний Владимира. Однако реальность разочаровала: студент Тринити-колледжа Кембриджского университета часто мёрз и простужался. Сначала он учился на биологическом факультете, затем перевёлся на филологический. Остальная семья обосновалась в Берлине.

В марте 1922 года Владимир потерял отца, погибшего во время покушения на П.Н.Милюкова. Потеря глубоко потрясла писателя. Получив степень бакалавра, он отправился к матери в Германию. В этой связи важно подчеркнуть, что Берлин в 1920-е годы был центром русской эмиграции. Набоков участвовал в литературном объединении «Веретено», а вместе с другом Г.П.Струве организовал «Братство круглого стола». Но он признавался, что никогда не понимал, зачем вступать в сообщества – видимо, это было попыткой избежать одиночества.

На жизнь Набоков зарабатывал преподаванием английского и французского, уроками тенниса, переводами. В 1922-1923 годах он перевёл на русский «Алису в Стране чудес» Льюиса Кэрролла, сохранив английский юмор и добавив русские бытовые детали, получив самостоятельное произведение под названием «Аня в Стране чудес». Тогда же вышел перевод Роллана «Кола Брюньон» («Николка Персик») и сборники стихов «Гроздь» и «Горний путь». Произведения публиковались под псевдонимами «Владимир Сирин» и «Василий Шишков».

Семья и личная жизнь: весной 1925 года Набоков женился на Вере Евсеевне Слоним (1902-1991), которую встретил на благотворительном балу эмигрантов. Вера стала его супругой, другом и единомышленником. Вместе

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

они воспитывали сына Дмитрия (1934-2012), будущего оперного певца и переводчика произведений отца.

Литературная деятельность: первый роман «Машенька» вышел в 1926 году в издательстве «Слово». В дальнейшем Набоков написал «Защиту Лужина» и «Приглашение на казнь» (1933), откликнувшись на политические события в Германии.

Следует отметить, что с приходом нацистов к власти в 1936 году семья была вынуждена покинуть Германию. В 1937 году они обосновались во Франции, где Набоков закончил роман «Дар». Вскоре, в мае 1940 года, из-за угрозы немецкой оккупации семья эмигрировала в США.

В Америке Набоков начал писать на английском языке. Первый роман – «Истинная жизнь Себастьяна Найта», затем «Под знаком незаконнорождённых» – не имели коммерческого успеха. На жизнь он зарабатывал лекциями по русской и мировой литературе, а также работой в зоологическом музее Гарварда.

С 1954 года Набоков работал над «Лолитой». Небезынтересно отметить, что роман, скандальный из-за любви взрослого мужчины к несовершеннолетней девочке, сначала был опубликован во Франции (1955), в США вышел в 1958 году. Произведение принесло писателю мировую известность и финансовое благополучие.

В 1960 году Набоковы вернулись в Европу, поселившись в Монтрё. Здесь Владимир перевёл «Евгения Онегина», «Героя нашего времени» и «Слово о полку Игореве». В 1962 году вышел «Бледный огонь» – роман-головоломка с двойным повествованием.

Смерть и наследие: в 1977 году, увлекаясь ловлей бабочек, Набоков упал и получил травмы. В госпитале он продолжал работать над незавершённым романом «Лаура и

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

её оригинал». Писатель скончался 2 июля 1977 года от лёгочной инфекции.

Похоронен Набоков на кладбище Кларан близ Монтрё, у берега Женевского озера. Он просил супругу сжечь рукопись, но Вера Евсеевна и сын Дмитрий сохранили её. В 2009 году роман был опубликован на английском и русском языках.

Набоков – это человек, соединявший тонкую художественную интуицию, научный интерес к природе и уникальный литературный талант, который, несмотря на эмиграцию, оставался глубоко русским писателем, неразрывно связанным с культурой и языком своей Родины.

Иван Алексеевич Бунин сохранял традиции реализма XIX века, но добавлял философскую глубину и поэтическое осмысление исторических катастроф. В его творчестве эмиграция выступает как испытание души и форма духовного сопротивления, а любовь к Родине – метафизическая категория, живущая в памяти и языке человека. Нобелевская премия 1933 года стала признанием не только личного таланта Бунина, но и значимости русской культуры, несмотря на изгнание

**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Sevinc Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

# Professional etikanın xüsusi təzahür forması – işgüzar etika

***Açar sözlər:*** *etika, professional etika, işgüzar etika, kommunikasiya, norma*
***Keywords:*** *ethics, professional ethics, business ethics, communication, norms*

Sosiologiya ilə dilçilik öz əlaqələrini sosiolinqvistika sahəsində tapmışdır. Sosiolinqvistika XX əsrin 50-ci illərində ABŞ-da yaranmış, çoxsaylı sosiolinqvistik araşdırmalar nəticəsində bu sahənin sosiologiyadan daha çox linqvistikaya aid olması, dilçilərin bu sahə ilə daha müntəzəm məşğul olmaları müəyyən edilmişdir. Bu araşdırmalar sırasında dil və sosial quruluş, dil sosial amil kimi, dil və millət, dil və mədəniyyət, dil və şəxsiyyətin sosiologiyası kimi sosiolinqvistik nəzəri problemlər olmuşdur.

Professional etikanın xüsusi təzahür forması son dövrlərdə çox aktual olan işgüzar etikadır. Bəzi ədəbiyyatlarda bu anlayış “iqtisadi etika”, “biznes etikası” və s. kimi ifadələrlə adlandırılsa da, işgüzar etika termini daha geniş mənanı özündə ehtiva edir. İşgüzar etika – işgüzar insanın davranış normalarının məcmuyu, mədəni cəmiyyətin onun iş üslubuna olan tələbləri, işgüzar kommunikasiya iştirakçıları arasındakı ünsiyyətin xarakteri və onların sosial simasıdır.

İşgüzar etika iş adamının praktik ehtiyaclarına uyğunlaş dırılmış etik anlayışlar, iş tərzinə aid mənəvi tələblər, işgüzar insanın xarici görünüşü haqqında məlumatlardır.

İşgüzar etika həmçinin, tərəf-müqabilləri ilə danışıqların aparılması etikası, sənədlərin tərib olunması etikasıdır, rəqabə tin etik metodlarından istifadə olunmasıdır. İşgüzar etika kon kret bir ölkədə mövcud olmuş müəyyən tarixi şərtlərin və ənənələrin təsiri nəticəsində formalaşır.

Etikanın vacib kateqoriyalarına xeyir, şər, ədalət, cavab dehlik, vicdan, şərəf və b. aiddir. İnsanlar xeyir və şərin sər həddini, xeyirxahlığın nə olduğunu ayırd etməyə çalışaraq, mənəvi davranış normaları müəyyənləşdirmişlər. Mənəviyyat normaları davranış qaydalarının necə olması barədə ümumi təsəvvürlərdə, ehkamlarda, prinsiplərdə ifadə olunur ki, bu da hər bir insanın əxlaqını formalaşdırır. N.Abuzərov qeyd edir ki: "*Əxlaq cəmiyyətin üzvləri üçün təhlükəsizliyin təmin edilməsi nə, sabitliyin qorunmasına, zərərli vərdişlərin islahına, insan ların bir-birinə etimadının artmasına, müştərək faydanın təmin edilməsinə, mənəvi inkişafa, qısası, birgəyaşayış üçün əlverişli mühitin yaranmasına xidmət edir.*"

Mənəvi davranış normaları hər zaman müəyyən bir mənəvi idealın, nümunənin müəyyənləşdirilməsini nəzərdə tutur. Müasir dövrdə işgüzar fəaliyyətdə əməksevərlik, xeyirxahlıq, punktuallıq, dəqiqlik, məsələlərin ədalətli həlli və s. mənəvi keyfiyyətlər kimi təsnif olunur. Bunun əksinə olaraq, qeyri-prinsipiallıq, faktların təhrif edilməsi, cavabdehlikdən yayınma, korrupsiya halları və s. mənəviyyatsızlıq kimi dəyərləndirilir.

Etika anlayışı davranış qaydaları, standartları ilə assosiasiya olunur. İşgüzar etika sferasında da, ilk növbədə, etibarlılıq, verilən vədləri yerinə yetirməyi bacarmaq və s. yüksək qiymətləndirilir. *İşgüzar etika* subyektiv istəklər əsasında yarana bilməz. Onun formalaşma şərtlərinə siyasi və iqtisadi azadlıq, güclü icraedici hakimiyyət, stabil qanunvericilik, təşviqat, hüquq və s. kimi amillər aiddir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Faidə İsayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-1568-5885
faida.isayeva@mail.ru

# İngilis dilçiliyində lüğətçiliyin inkişafı

***Açar sözlər:*** *ingilis dili, leksika, lüğət, lüğət tarixi, əlyazma*
***Keywords:*** *English language, lexicon, dictionary, dictionary history, manuscript*

Türkologiyada, o cümlədən də Azərbaycan dilçiliyində lüğətçiliyin tarixi qədim olduğu kimi, ingilis lüğətçiliyinin tarixi də qədim dövrlərdən başlayır. Qərbi Avropada lüğətçiliyin ilk nümunələri VIII əsrdə meydana gəlməyə başlamışdır (Rəhimov, 2006). Lüğətlərin qədim dövrü orta əsrlərdə aydın olmayan sözlərin izahı ilə bağlı olaraq, qloslaşdırma praktikasından irəli gəlmişdir. XV əsrdə latın-ingilis sözlüyü buna parlaq misaldır. İlk qlossarilərdən VIII-IX əsrlərdə Korpus Qlossari, Layden Qlossari, Epinal Qlossari və Erfurt Qlossari və b. adlarını çəkmək olar. Hələ o dövrdə latın dili nəinki İngiltərədə, hətta bütün Qərbi Avropada ən qabaqcıl və geniş yayılmış dillərdən idi. Odur ki, mənbələr təsdiq edir ki, hələ VII əsrdən ingilis monastır məktəblərində, orta əsrlərdə məktəblərdə latın dili, sonra isə fransız dili öyrənilməyə başlamışdır. Bununla əlaqədar, 1200-cü ildə Aleksandr Nekhamın üç dildə - latın-fransız-ingilis dillərində "Müxəlləfat əşyalarının adları" ("De Nominibus Utensilium") adlı lüğəti çap olunmuşdur ki, *orada aşağıdakı məzmunda mövzular üzrə qruplaşdırma aparılmışdır: mətbəx əşyaları, yemək hazırlamağın üsulları, ev, ev avadanlıqları, kənd təsərrüfatı alətləri* (Stupin, 1985, s. 54).

VIII-XIV əsr sivilizasiyası dövründə də ingilis lüğətçiliyi geniş inkişaf etməyə başladı. Əlyazma şəklində latınca-ingiliscə

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

və ingiliscə-latınca ikidilli qlossari hazırlanırdı. Beləliklə, 1-ci mərhələdə ingilis dili lüğətçiliyi əlyazma şəklində hazırlanmışdır ki, bunlar da ingiliscə-latınca və latınca-ingiliscə olan lüğətlərdir. Yeni ingilis leksikoqrafiyası XV əsrdən başlanır. Bu dövrdə ikidilli lüğətlər: ingiliscə-fransızca, ingiliscə-latınca və ingilis-cə-almanca lüğətlər hazırlanmışdır. Bunların içərisində Conson Stenbricin hazırladığı "Vocabula" ("Söz") lüğəti diqqətəlayiqdir. Həmin dövr ərzində İngiltərədə bu lüğətin davamı olaraq ilk dəfə "Ortus Vocabulorum" ("Söz bağı") lüğəti nəşr olunmuşdur ki, burada ingilis və latın dillərindən istifadə edilməklə sözlərin şərhi verilmişdir. Növbəti mərhələ bütöv XVI əsri əhatə edir. Bu dövr artıq Avropada renessans dövrü adlandırılmaqla ən yüksək səviyyəyə yüksəlmişdir. Elm və mədəniyyət, demək olar ki, sürətlə inkişaf etməyə başlamışdır. O cümlədən də lüğətçilik sahəsi öz inkişafından qalmamışdır. Latınca-ingiliscə və ingiliscə-latınca ikidilli lüğətlər geniş inkişaf etmişdir. Bu dövrdə Tomas Eliotun latınca-ingiliscə "The Dictionary" adlı soraq kitabçası daha çox diqqəti cəlb edirdi. Burada, əsasən, latın sözləri ingiliscə izah edilir, bəzilərinin ekvivalenti verilir. Kitabda klassik latın ədəbiyyatından illüstrasiyalar da verilmişdir. Hətta latın atalar sözləri və məsəllər, şəxs adları da öz əksini tapır. Lüğət o dərəcədə populyarlaşmışdır ki, müxtəlif adlarda bir neçə dəfə çap olunmuşdur. Bu haqda L.P.Stupin yazır ki, *Eliotun lüğəti XVI əsrin 2-ci yarısında İngiltərənin ümumi həyatında olduqca mühüm bir hadisə idi* (Stupin, 1985, s. 57).

Bu dövrdə latınca-ingiliscə lüğətlərin hazırlanmasında leksikoqraflardan T.Kuperin, Q.Moreliysun, T.Tomasın adlarını da çəkmək olar. XVI əsrdə ingilis lüğətçiliyində yalnız latınca-ingiliscə deyil, həmçinin, ingiliscə-latınca lüğətlər də hazırlanmışdır. Bu cür lüğətin hazırlanmasında R.Huloet, C.Vitals, C.Baret, C.Rayder kimi dilçi alimlərin adlarını çəkmək olar.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

İngilis lüğətçiliyi tarixində XVI əsr həm də iki və çoxdilli tərcümə lüğətlərinin yaranması ilə yadda qalır: fransızca, ispanca, italyanca. Belə lüğətlərdən biri Con Palsqrave “L’eclaircissement de la langue française” (1530), V.Solsberi “A Dictionary in English and Welsh” (1547), V.Tomas “Rules of the Italian Grammar, with a Dictionary” (1550), R.Persivol “Bibliotheca Hispanica, Spanish-English Dictionary” (1591), K.Holliband “A Dictionary French and English” (1593) və s. adlarını çəkə bilərik. XVI əsrin sonu – XVII əsrin əvvəllərində artıq İngiltərədə çətin sözlərin izahlı lüğətlərinin tərtibinə başlanıldı. Əvvəlcə latın və yunan dillərindən alınma sözlərdən ibarət izahlı lüğətlər hazırlanmışdır ki, bu da ingilisdilli tərcüməçilər və yazarlar üçün əhəmiyyətli olmuşdur.

Mənbələrdən aydın olur ki, ingilis dilində ilk izahlı lüğət Robert Kodri tərəfindən hazırlanmış və 1604-cü ildə çap olunmuşdur. Lüğətdə çətin sözlərin mənaları və orfoqrafik yazılışı verilmişdir. Adından da məlum olur ki, lüğətdə, əsasən istifadəçilərə kömək məqsədilə qədim Avropa, yunan, latın, fransız və başqa dillərdən alınma sözlərdən istifadə olunmuşdur. Bu əsəri ilə R.Kodrini müxtəlifsistemli dillərin ilk leksikoqrafı adlandırmaq olar. Lüğətdəki nümunələrlə L.P.Stupinin rus dilində nəşr olunan “*Лексикография английского языка*” əsərində tanış olmaq olar. L.P.Stupinə əsaslanaraq deyə bilərik ki, lüğət 120 səhifədən ibarət olub 2,5 min lüğət məqaləsini əhatə edir və 1604-1612-ci illər arası 4 dəfə nəşr olunmuşdur (Stupin, 1985, s. 64).

## Ədəbiyyat

1. Rəhimov, İ. (2006). *Azərbaycanca-ingiliscə lüğət*. Şərq-Qərb.
2. Stupin, L.P. (1985). *Leksikografiya angliiskogo yazyka*. Vysshaya shkola

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 24-27
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 24-27
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Xatirə Əliyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0029045-4940
xatireeliyeva@mail.ru

# Türk dünyası və ortaq dil

***Açar sözlər:*** *türk dili, ortaq dil, türk dünyası*
***Keywords:*** *Turkish language, common language, Turkic world*

Müxtəlif dövrlərdə türk dünyasını ortaq türk ədəbi dil birliyi problemi həmişə düşündürmüşdür. Belə ki, XIX əsrin son rübündə 26 sentyabr 1876-cı ildə "Əkinçi" qəzetinin 4-cü sayında bir azəri türkün dağıstanlı və ya krım, kazanlı ilə asanlıqla ünsiyyət saxlaması üçün dillərin birləşdirilməsindən, elm və ədəbiyyat sahəsində zəruri sayılan işlərin görülməsindən bəhs edildiyinə görə çar senzurası tərəfindən qəzet bağlanmışdır.

Ortaq türk ədəbi dili problemi maarifçi, jurnalist İsmayıl Qaspiralının idealına çevrilmişdir. "Dildə, fikirdə, işdə birlik" sözlərini özünə şüar edən İsmayıl Qaspiralı Türk dünyasında "Dil birliyi" problemini qarşısına məqsəd qoyduğunu ilk dəfə Krımda Ağməsciddə daşbasması ilə nəşr etdirdiyi "Tonguç" jurnalında çap etdirdiyi məqalələrində söyləmişdir. Daha sonra o, 1883-cü ildə nəşrinə başladığı "Tərcüman" qəzetində türk və tatarların "Dildə birlik" məsələsini ortaya ataraq bütün türk boylarında anlaşa biləcək, başa düşülə biləcək "Türk dili" ilə yazmağa cəhd göstərərək ortaq türk ədəbi dili üçün bir çığır açmışdır. Bütün ömrü boyu türk boyları arasında dil birliyi yaratmağa çalışan İsmayıl Qaspiralı "ordan, burdan, başqa

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

dillərdən söz almaqla ortaq dil yarana bilməz, ortaq sözlər Türk boylarının özlərindən alınmalıdır" deyirdi.

1926-cı ilin 26 fevral-5 martında Bakı şəhərində keçirilmiş Birinci Ümumittifaq Türkoloji qurultayında da ortaq türk ədəbi dili məsələsinə toxunulmuşdur. Bu haqda T.Hacıyev yazır: "Qurultayın özündə ədəbi dil və ümumtürk ədəbi dili məsələsi ilə bağlı söhbət getdi. Xüsusilə, çıxışlarda F.Köprülüzadənin "Türk xalqlarının ədəbi dillərinin inkişafı" adlı məruzəsi ilə əlaqədar həmin məsələyə toxunuldu. "Ədəbi dil yaradılır" düsturunu sxem kimi alanlar göstərdilər ki, bir halda ki, müxtəlif türk dillərində danışanlar, xüsusilə, ziyalılar bir-birini başa düşürlər, bir halda ki, ədəbi dili ziyalılar "düzəldirlər", onda ümumi ədəbi dil yaratmaq mümkündür.

Türk millətinin keçdiyi tarixi yola əsasən demək olar ki, Türk dünyası üçün "Ortaq dil" yaratmaq ideyası XX əsrin 80-ci illərindən sonra daha çox reallıq kəsb edir. Daha doğrusu, müasir dövrdə ortaq türk ədəbi dilinə yiyələnmək üçün hər cür imkan və şərait vardır. Bu yolda məşhur jurnalist İsmayıl Qaspiralının təcrübələrindən çox faydalanmaq olar.

İsmayıl Qaspiralının "Dildə, fikirdə, işdə birlik" şüarına əsasən, I Türk Dili Qurultayında qərar alınmışdır ki, Türkiyə türkcəsi ortaq ədəbi dili olmaq imkanına malikdir. Bunun üçün hər türk boyunun ləhcəsi ilə yanaşı Türkiyə türkcəsi də öyrənilməlidir.

Ortaq türk ədəbi dili haqqında Əhməd Biçan Ərçilasun yazır: "Rus dili əvəzinə və ya onunla yanaşı məktəblərdə tədris ediləcək Türkiyə türkcəsi bir zaman ortaq ədəbi dil olaraq doğmalaşa bilər. Öz şivələri ilə yanaşı, sovet hakimiyyəti dövründə rusca əsər yazan ədib və alimlər çox gözəl olaraq ortaq dil kimi rus dili yerinə məktəblərdə öyrəndikləri Türkiyə türkcəsini işlədə bilərlər. İndiki anda Türkiyə türkcəsi Türkiyədən başqa Şimali Kıbrıs, Kipr, Türk Cumhuriyyəti, İraq,

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Yunanıstan, Bolqarıstan, Yuqoslaviya və Rumuniyadakı türklərin ortaq ədəbi dilidir (Ercilusun, 1993). Bütün türklərin öz azad iradələriylə verəcəkləri əsasən, ortaq ədəbi dilin Türkiyə türkcəsi nəzərdə tutulur. Orta məktəblərdə tədrisin öyrənilməsi qanuniləşərsə, bu dil bütün türk ədəbi dillərindən qidalanaraq dünyanın ən zəngin dilləri halına gələ bilər (Qurbanov, 1993). A.Qurbanov ümumtürk ədəbi dilinin zəruriliyi haqqında yazır: “Qohum xalqlar üçün ortaq ünsiyyət vasitəsi yaratmaq onların inkişafında xüsusi əhəmiyyət kəsb edir. Ortaq ədəbi dil elmi, mədəni, iqtisadi və siyasi əlaqələrin yaranıb genişlənməsində əvəzsiz vasitədir (Qurbanov, 1993).

Türk dilləri arasındakı fərqlər müasir türk dünyasının inkişafına, onun xalqlarının daha da yaxınlaşmasına müəyyən mənada maneə yaradır. İndiki dövrdə bu dil baryerini aradan götürüb dini, canı və qanı bir olan türk xalqları üçün ümumtürk ədəbi dilinin yaradılmasına böyük ehtiyac duyulur. Ortaq dil yaratmaq dövrün tələbidir, çünki ümumtürk ədəbi dili vasitəsi ilə türk xalqlarının əlaqələri möhkəmləndikcə onlar iqtisadi, siyasi və mədəni cəhətdən yüksək inkişafa nail olmaq imkanı əldə edə biləcəklər.

A.Qurbanov daha sonra yazır: “Ümumtürk ədəbi dili yaratmağın iki yolu vardır. Birincisi, türk dillərinin ümumi cəhətlərini özündə daha çox əks etdirən konkret bir türk dilini sevib işlətmək; ikincisi, bütün türk dilləri əsasında ümumtürk ədəbi dilini formalaşdırmaq” (Qurbanov,1993). Müəllif “ulu türk dili” modeli əsasında ümumtürk ortaq ədəbi dilinin yaradılmasını daha münasib sayır.

Unudulmamalıdır ki, ortaq türk ədəbi dili heç də ayrı-ayrı türk ədəbi dillərini inkar etmir. Ayrı-ayrı türk ədəbi dilləri də ortaq türk ədəbi dilləri də ortaq türk ədəbi dilini inkar etmir. Əksinə, bunlar biri-birinin inkişafına müxtəlif cəhətlərdən təsir göstərir, biri digərini zənginləşdirir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Özbək alimlərindən B.R.Kərimov və Ş.Ş.Mutalov "Orta türk dili" kitabçasında qədim və müasir türk dillərinin söz birliyinə, dil qaydaları və normalarının birləşdirilməsinə əməl olunması halında ortaq türk ədəbi dilini formalaşdırmaq qənaətinə gəlirlər.

N.Xudiyev ümumi türk ədəbi dilinin tarixi zərurət olduğunu qeyd edərək onun üç yolla formalaşması mümkünlüyünü göstərmişdir.

1.Müasir türk ədəbi dillərindən birinin, birinci növbədə Türkiyə türkcəsinin ümumtürk ünsiyyəti vasitəsinə çevrilməsi ilə; 2.Müxtəlif türk regionları üçün xarakterik olan bir neçə oğuz, qıpçaq, qaqauz-uyğur və s. türk ədəbi dilinin variantlarının təşəkkül tapıb sonradan intensiv-qarşılıqlı əlaqədə bir ədəbi dilə çevrilməsi ilə; 3.Türk xalqları arasında iqtisadi-mədəni əlaqələrin güclənməsi ilə əlaqədar olaraq türk ictimaiyyətinin vahid ədəbi dil ehtiyacının meydana çıxması və müştərək nitq vərdişlərinə əsaslanan ədəbi dil quruculuğu ilə (Xudiyev, 1993).

Yuxarıda deyilənlərə və araşdırmalarımıza görə Türk dünyasının ümumişlək lüğət tərkibinə dayanaraq ortaq Türk ədəbi dilini müəyyənləşdirmək mümkündür.

## Ədəbiyyat

1. Ercilasun, A.B. (1993) *Dilde Birlik*.
2. Xudiyev, N. (1992). *Qədim türk abidələrinin sözlüyü*. Elm.
3. Qurbanov, A. (1993). *Türkoloji dilçilik*. ADPU.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Gülnar Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0001-5388-5373
muxtarzadegulnar@gmail.com

# Azərbaycanda dilin fonetik sistemi tarixi inkişafda

***Açar sözlər:*** *fonetika, Azərbaycan dili, tarixi inkişaf, səslər sistemi, fonologiya*
***Keywords:*** *phonetics, Azerbaijani language, historical development, sound system, phonology*

Azərbaycan dilinin fonetik sistemi dilin ən qədim qatlarından biri olaraq minilliklər boyu inkişaf etmiş, müxtəlif tarixi mərhələlərin təsiri altında formalaşmışdır. Fonetika dilin səs tərkibini, səslərin yaranma xüsusiyyətlərini, fonemlərin funksiyasını və nitq prosesindəki rolunu öyrənən mühüm dilçilik sahəsidir. Fonetik sistemin tarixi inkişafını araşdırmaq dilin təkamül prosesini izləməyə, onun qədim və müasir xüsusiyyətlərini müəyyən etməyə imkan verir.

Azərbaycan dili ümumtürk dillərindən biri olaraq fonetik quruluşunda həm ümumi türk xüsusiyyətlərini, həm də özünəməxsus milli cizgiləri qorumuşdur. Sait və samit sistemindəki fərqlər, ahəng qanununun tarixi əsasları, assimilyasiya və dissimilyasiya prosesləri, fonem sabitliyi və dəyişkənliyi bu inkişafın əsas tərkib hissələridir.

I.Qədim dövrdə Azərbaycan dilinin fonetik bazası. Azərbaycan dilinin fonetik tarixi qədim türk dillərinin formalaşdığı dövrlərə gedib çıxır. Orxon-Yenisey kitabələri, Göytürk yazıları, qədim türk leksik-fonetik materialları fonetik sistemin ilkin mərhələsini əks etdirir. Bu mənbələrdə ahəng qanununun geniş

şəkildə işlənməsi, saitlərin harmoniyası, samit dəyişmələrinin qanunauyğunluğu müşahidə olunur. "Kitabi-Dədə Qorqud" dastanında fonetik sistemin sabit və tarixi baxımdan etibarlı izləri qorunub saxlanmışdır. Burada dilin qədim fonem tərkibi, saitlərin uzun və qısa formaları, k → q, g → ğ kimi tipik fonetik keçidlər açıq şəkildə görünür. Qıpçaq və oğuz qatlarının qarşılıqlı təsiri nəticəsində Azərbaycan türkcəsinin fonetik quruluşunda mühüm fərqlər formalaşmışdır.

II.Orta əsrlərdə fonetik sistemin inkişafı. XIII-XVI əsrlər Azərbaycan dilinin fonetik normalaşma dövrü kimi səciyyələndirilir. Ərəb-fars dilləri ilə sıx ünsiyyət nəticəsində dilə yeni səslər daxil olmuş, sözlərin tələffüzündə müəyyən dəyişikliklər baş vermişdir. Lakin bütün bunlara baxmayaraq, türk fonetik bazası sabit olaraq qalmışdır. Həmin dövrün yazılı abidələrində saitlərin açıq və qapalı variantları, samit dəyişmələri, xüsusən də ahəng qanununun sabit fəaliyyəti nəzərə çarpır. XV-XVI əsrlərdə ədəbi dilin inkişafı fonetik sistemə də təsir etmişdir. Füzuli, Nəsimi kimi klassiklərin dilində həm türk fonetik əsasları, həm də ərəb-fars təsiri ilə formalaşan fonetik elementlər yanaşı mövcuddur.

III.Yeni dövr: Fonetik sistemdə dəyişikliklər və sabitlik. XVIII-XIX əsrlər Azərbaycan dilində fonetik demokratizmin artdığı dövrdür. Xalq dili ədəbi dilə təsir edir, dialektlərdə qorunmuş qədim fonetik formalar ədəbi dilə daxil olur. Bu dövrdə: – b → m keçidi (bən → mən), – q/x → h keçidi (xanı → hanı), – assimilyasiya və dissimilyasiya proseslərinin güclənməsi, – alınma sözlərin tələffüzcə milliləşməsi kimi dəyişmələr fonetik sistemin inkişafında mühüm rol oynamışdır. M.F.Axundzadənin yazı islahatı sahəsində fəaliyyəti də fonetik sistemin normalaşmasına mühüm təsir göstərmişdir. Yazıda səs-yazı uyğunluğunun artırılması fonetik sabitliyin möhkəmlənməsinə xidmət etmişdir.

IV.XX əsr və müasir mərhələ. XX əsr Azərbaycan fonetik tarixinin ən mühüm mərhələlərindən biridir. 1929-cu ildə latın qrafikasına keçid fonetik quruluşun daha dəqiq ifadəsinə şərait yaratmışdır. Saitlərin tam yazılması, ahəng qanununun qrafik şəkildə sabitləşməsi müasir fonetik sistemin formalaşmasına mühüm şəkildə təsir etmişdir. Sovet dövründə ədəbi norma sistemləşdirilmiş, fonetik qaydalar elmi şəkildə müəyyənləşdirilmişdir. Orfoepik norma – yəni tələffüz normaları – genişləndirilmiş, səslərin fonem statusu aydın olaraq təsnif edilmişdir. Müasir dövrdə Azərbaycan dilinin fonetik sistemi stabil, eyni zamanda dinamikdir. Media dili, texnoloji inkişaf, yeni alınmalar fonetik sistemin müəyyən səviyyədə yenilənməsinə səbəb olur.

Azərbaycan dilinin fonetik sistemi uzun bir tarixi inkişaf yolu keçmişdir. Qədim türk fonetik təməllərindən müasir ədəbi dilə qədər fonem sabitliyi, səs dəyişmələri və ahəng qanunu bu sistemin əsas hərəkətverici amilləri olmuşdur. Tarixi fonetik proseslərin araşdırılması dilin təkamülünü, inkişaf istiqamətlərini və müasir fonetik normanın formalaşmasını anlamaq baxımından mühüm əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Natavan Pashayeva**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0001-4269-7681
pasayeva.natavan@mail.ru

# The Role of Play in the Development of Children

***Keywords:*** *child development, physical development, psychological development, social skills, intellectual development, creative thinking*
***Açar sözlər:*** *uşaqların inkişafı, fiziki inkişaf, psixoloji inkişaf, sosial bacarıqlar, intellektual inkişaf, yaradıcı düşüncə*

Play, as a natural mode of activity in the developmental trajectory of children, facilitates the acquisition of environmental knowledge, enriches personal experiential learning, and promotes the development of cognitive competencies. Empirical studies indicate that through play, children not only realize their creative potential but also consolidate communication skills, acquire collaborative competencies, and internalize social norms and responsibilities. These experiences provide a foundation for the formation of socially competent, responsible, and well-adjusted individuals.

Play is not merely a recreational activity; it constitutes a fundamental pedagogical instrument that supports learning, socialization, personality development, and the acquisition of essential life skills. Accordingly, play should be regarded as an integral component of the educational process and systematically encouraged within both school and familial contexts (Pellegrini, 2009).

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Contemporary pedagogical and psychological frameworks recognize play as a central mechanism for holistic child development. Play functions not solely as a means of recreation but also as a critical medium for fostering socialization, emotional regulation, and the enhancement of intellectual and physical capacities. Through engagement in play, children explore their environment, accumulate experiential knowledge, and practice adaptive behavioral strategies essential for life. Empirical research demonstrates that play assumes an indispensable role in the development of creative and critical thinking skills. During play, children apply prior knowledge, generate novel ideas, experiment with alternative strategies, and analyze situations from multiple perspectives. This process cultivates imagination, strengthens logical reasoning, and fosters the capacity to devise adaptive solutions to complex challenges (Elkonin, 2005).

Furthermore, play is instrumental in socio-emotional development. Children refine communication skills, express ideas effectively, and develop perspective-taking abilities through interactive play, thereby enhancing empathy, cooperation, and collaborative competencies. Structured group play further nurtures teamwork, mutual support, and collective responsibility.

Play also contributes to the internalization of ethical and social norms. Observing rules, respecting the rights of others, and demonstrating fairness facilitate social adaptation. Experiences of both success and failure within play contexts enhance emotional stability, resilience, and self-regulatory capacities (UNICEF, 2018).

From a physical development standpoint, play is a critical determinant of motor skill acquisition, coordination, balance, agility, and overall health. Cognitive play activities stimulate

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

attention, memory, and logical reasoning, thereby expanding the child's learning potential. Collectively, play constitutes a multidimensional activity that supports individual development and social integration. Its strategic importance lies in fostering children's holistic growth and the acquisition of social-adaptive competencies (Frost, Wortham, Reifel, 2012).

Research findings indicate that play exerts a decisive influence on children's physical, psychological, social, and intellectual development. Physically, play strengthens motor abilities and facilitates the development of coordination, balance, and agility. Psychologically, it promotes creative and critical thinking, encouraging children to analyze problems from diverse perspectives and generate innovative solutions.

Socially and emotionally, play fosters communication and collaborative skills, empathy, responsibility, and mutual respect. Engagement in group and cooperative activities enhances social competence and adaptability.

Intellectually, play supports attention, memory, problem-solving, and analytical reasoning while contributing to emotional regulation and resilience (Bodrova, Leong, 2007).

In conclusion, play constitutes a vital pedagogical tool that transcends mere recreation, promoting comprehensive development across physical, cognitive, social, and emotional domains. Modern pedagogical paradigms advocate for the systematic and purposeful integration of play into educational processes, thereby ensuring the cultivation of children's holistic potential.

Consequently, play occupies a central and strategic position within curricula and educational environments as an essential instrument for learning, socialization, and personal development.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

## References

1. Bodrova, E., Leong, D.J. (2007). *Tools of the Mind: The Vygotskian Approach to Early Childhood Education (2nd ed.).* Upper Saddle River, NJ: Pearson.
2. Elkonin, D.B. (2005). *The Psychology of Play.* Boca Raton, FL: CRC Press.
3. Frost, J.L., Wortham, S.C., & Reifel, S. (2012). *Play and Child Development (4th ed.)*. Upper Saddle River, NJ: Pearson.
4. Pellegrini, A.D. (2009). *The Role of Play in Human Development.* Oxford University Press.
5. UNICEF. (2018). *Learning through Play: Strengthening Learning through Play in Early Childhood Education Programmes*. UNICEF.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 35-38**
***Research in Science and Education*** **XI Republican Scientific Conference / 19 december, 2025 / 35-38**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Fidan Yusifova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-0300-0749
yusifovaf@gmail.com

# Yer adlarının etimoloji təhlili və mənşə məsələləri

***Açar sözlər***: *toponimika, yer adları, etimologiya, mənşə, dil tarixi, Azərbaycan toponimləri, leksik-semantik xüsusiyyətlər*
***Keywords:*** *toponymy, place names, etymology, origin, language history, Azerbaijani toponyms, lexical-semantic features*

Yer adları – toponimlər – xalqın tarixi yaddaşının, etnik-mədəni kimliyinin, dilinin və dünyagörüşünün ən dəyərli daşıyıcılarından biridir. Toponimlərin yaranması, formalaşması və inkişafı prosesi bir çox hallarda həmin ərazidə yaşayan insanların məişət tərzi, məşğuliyyət sahələri, dini inancları və təbii-coğrafi şəraiti ilə sıx bağlı olur. Buna görə də yer adlarının etimoloji təhlili yalnız dilçilik baxımından deyil, həm də tarix, etnoqrafiya və coğrafiya elmlərinin kəsişməsində aparılmalıdır. Etimologiya baxımından toponimlərin öyrənilməsi, ilk növbədə, adların yaranma mənbəyini, semantik əsaslarını və dil strukturunu müəyyənləşdirməyə yönəlir. Yer adlarının mənşəyini araşdırarkən, söz köklərinin qədim dillərə, xüsusilə türk, irani, ərəb və bəzən də monqol mənşəli elementlərə bağlanması müşahidə olunur. Azərbaycan toponimikasında qədim türk köklərinə əsaslanan yer adları üstünlük təşkil edir. Məsələn, “Qobu”, “Daşlı”, “Qayalı”, “Ağsu”, “Göyçə” kimi adlar həm təbii relyefi, həm də qədim türk dillərindəki mənaları ilə səciyyələnir.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 35-38
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 35-38
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Azərbaycan ərazisində yerləşən bir çox toponimlər çoxqatlı semantik təbəqəyə malikdir. Yəni onların ilkin mənası zaman keçdikcə dəyişmiş, bəzən xalq etimologiyası nəticəsində yeni mənalar qazanmışdır. Məsələn, "Şamaxı" adının etimologiyası barədə müxtəlif fikirlər mövcuddur: bəzi tədqiqatçılar onu "şam ağacları bitən yer" mənası ilə, digərləri isə qədim tayfa adı olan "Şam" etnonimi ilə əlaqələndirirlər. Bu kimi nümunələr göstərir ki, toponimlərin mənşəyi bir çox hallarda çoxsəviyyəli araşdırma tələb edir. Yer adlarının yaranmasında insan amili mühüm rol oynayır. Bəzən ərazi adları həmin yerdə yaşamış tayfa, qəbilə və ya şəxs adları ilə bağlı olur. Məsələn, "Qazax", "Qarabağ", "Şirvan", "Təbriz" kimi toponimlər etnoqrafik və tarixi köklərə söykənir. "Qarabağ" sözünün "qara" (böyük, geniş) və "bağ" (yaşıl, münbit yer) komponentlərindən ibarət olması həmin ərazinin təbii şəraitini əks etdirir. "Şirvan" isə "şir" (ərəb və fars dillərində "aslan") sözündən əmələ gəlmiş olub, qədim dövrlərdə bu ərazinin igidlik və qüvvə simvolu kimi qəbul edildiyini göstərir. Etimoloji tədqiqatlar göstərir ki, toponimlər bir çox hallarda həm təbiət hadisələrini, həm coğrafi relyefi, həm də sosial-tarixi hadisələri əks etdirir. Məsələn, "Qızılqaya", "Ağdərə", "Göygöl", "Qırmızı kənd", "Daşbulaq" kimi adlarda rəng, material və coğrafi obyektlərin adı ilə bağlı semantik elementlər mövcuddur. Bu tip adlar həm xalqın müşahidə qabiliyyətini, həm də dilin obrazlı ifadə imkanlarını nümayiş etdirir. Yer adlarının etimoloji təhlili yalnız dilin tarixi inkişafını izləməyə deyil, həm də xalqın mənəvi-mədəni dünyasını anlamağa imkan yaradır. Toponimlər insanla təbiət arasındakı qarşılıqlı münasibətin dil müstəvisində ifadəsidir. Hər bir yer adı – o torpaqda yaşayan insanların həyat tərzi, inancları və dünyagörüşü ilə bağlı simvolik bir izdir. Buna görə də toponimlərin tədqiqi, eyni zamanda, xalqın coğrafi məkanla bağlı kollektiv yaddaşının öyrənilməsidir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Toponimik araşdırmalar göstərir ki, Azərbaycan ərazisindəki bir çox yer adları qədim tayfa və etnos adları ilə sıx əlaqəlidir. Məsələn, "Sakasən", "Qafqaz", "Talış", "Kəngərli" kimi toponimlər xalqın etnik tərkibində tarix boyu rol oynamış qəbilə və tayfaların adlarını daşıyır. Bu cür toponimlər vasitəsilə qədim etnik qrupların məskunlaşma arealları müəyyən olunur və bu da ölkənin etno-tarixi xəritəsini bərpa etməyə imkan verir. Digər tərəfdən, toponimlərin dəyişdirilməsi, xüsusilə XX əsrin ortalarından başlayaraq, bir sıra siyasi və ideoloji amillərlə bağlı olmuşdur. Bu proses nəticəsində bəzi qədim türk mənşəli adlar unudulmuş, onların yerinə yad mənşəli, süni toponimlər gətirilmişdir. Müasir dövrdə bu adların bərpası, etimoloji əsasda yenidən tədqiqi həm dilin tarixi davamlılığının qorunması, həm də milli kimliyin möhkəmləndirilməsi baxımından zəruri hesab olunur. Eyni zamanda, yer adlarının etimologiyası coğrafi terminologiyanın zənginliyini də nümayiş etdirir. Azərbaycan toponimlərində "dağ", "dərə", "çay", "təpə", "qala", "arx", "bulaq", "bağ", "oba" kimi sözlərin geniş işlənməsi dilin təbiətə bağlılığını göstərir. Bu terminlər vasitəsilə həm coğrafi obyektlərin xarakteri, həm də xalqın təsərrüfat-məişət fəaliyyəti haqqında məlumat əldə etmək mümkündür.

Toponimlərin mənşə məsələlərinin öyrənilməsi həm də dilin tarixi qatlarını bərpa etmək baxımından böyük əhəmiyyət daşıyır. Çünki bir çox qədim toponimlər artıq işlək dildə unudulmuş söz formalarını saxlayır. Belə adlar vasitəsilə qədim türk dillərinin leksik və fonetik xüsusiyyətlərini izləmək mümkündür. Məsələn, "Balakən" adında "balı" komponenti qədim türk dillərində "böyük", "uca" mənasını daşıyır, "kən" isə "şəhər" mənasında işlənmişdir. Deməli, bu ad "böyük şəhər" mənalı qədim bir leksik qatı qoruyub saxlamışdır. Yer adlarının mənşəyinin müəyyənləşdirilməsi həm də milli kimlik və tarix üçün strateji əhəmiyyətə malikdir. Toponimlər vasitəsilə qədim

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

etnik qrupların yayılma arealı, köç yolları və məskunlaşma prosesi bərpa olunur. Buna görə də toponimik araşdırmalar yalnız dilçilik məqsədi daşımır, həm də tarixi və coğrafi faktların bərpasında mühüm rol oynayır. Nəticə etibarilə, yer adlarının etimoloji təhlili və mənşə məsələlərinin öyrənilməsi Azərbaycan dilçiliyində həm nəzəri, həm də praktiki baxımdan aktual mövzulardan biridir. Bu istiqamətdə aparılan tədqiqatlar yalnız sözlərin mənşəyini deyil, həm də xalqın tarixini, mədəniyyətini və düşüncə tərzini üzə çıxarır. Toponimlər – dilin daş yaddaşı kimi – minilliklərin səsini bu günə daşıyır və hər bir xalqın tarixi varlığının dilə çevrilmiş forması kimi qiymətləndirilməlidir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Arzu Huseynli**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0000-0002-4571-4678
huseynovaarzu@mail.ru

# Student-Focused Teaching: Enabling Learners for Lifelong Education

***Keywords***: *student-centered learning, diverse needs, communication, critical thinking, learning skills*
***Açar sözlər:*** *tələbə yönümlü öyrənmə, fərqli ehtiyaclar, ünsiyyət, tənqidi düşünmə, öyrənmə bacarıqları*

Student-centered teaching is a pedagogical approach that prioritizes the needs, interests, and goals of students to create an inclusive and engaging learning environment. Student-centered teaching seeks to create an inclusive and participatory learning environment, where students are active collaborators and co-creators rather than passive recipients of knowledge. By embracing learner-centered teaching, students are empowered to become active participants in their education, leading to enhanced motivation, deeper understanding, and the development of lifelong learning skills.

Key principles of student-centered teaching include the following: 1. Student-centered environment: Creating a student-centered environment is a fundamental principle of learner-centered teaching. In this approach, the focus shifts from the instructor as the sole authority to the students as active participants in their own learning. Creating a safe, respectful, and inclusive classroom climate is crucial for learner-centered teaching. Students should feel empowered to voice their ideas, ask questions, and challenge assumptions without fear of

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

judgment. This environment promotes open communication and encourages students to take ownership of their learning process. Students are encouraged to explore their interests, ask questions, and engage in meaningful discussions. By creating a student-centered environment, educators provide a supportive and empowering space that nurtures the development of confident, independent, and lifelong learners. 2. Customization of learning: In student-centered teaching, customization of learning experiences is essential to meet the diverse needs and preferences of students. Recognizing that each student has unique strengths, interests, and learning styles, learner-centered teaching involves tailoring instructional methods and content to accommodate this diversity. Educators may offer a range of learning options, such as multimedia materials, hands-on activities, group projects, or individual research, to cater to different learning preferences. By allowing students to have some control and decision-making power over their learning, customization fosters a sense of autonomy and intrinsic motivation. Through differentiated instruction, students are given the autonomy to explore topics that resonate with their passions while fostering interdisciplinary connections that enhance their overall understanding. It acknowledges that students come to the classroom with various backgrounds and experiences and acknowledges their strengths and areas for growth. Customizing learning experiences helps to create a more engaging and personalized learning journey for each student, leading to improved learning outcomes. 3. Feedback and assessment: In learner-centered teaching, feedback and assessment are crucial components. Regular and timely feedback is essential for learner-centered teaching. Effective feedback provides constructive guidance, acknowledges strengths, and identifies areas for improvement. It not only helps

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

students identify areas for improvement but also encourages self-reflection. Assessment methods should align with learning objectives, promote reflection, and empower learners to track their progress and achieve meaningful growth and incorporate a variety of alternatives, such as portfolios, presentations, peer evaluations, and self-assessments, to promote comprehensive evaluation of students' learning outcomes beyond standardized tests. Benefits of Learner-Centered Teaching: 1. Enhanced motivation: By aligning the curriculum with students' interests and goals, learner-centered teaching cultivates intrinsic motivation, fostering a genuine passion for learning. Students become active participants in their education, leading to greater engagement and perseverance in their academic pursuits. 2. Deeper understanding: When students are encouraged to think critically, question assumptions, and actively participate in their learning, they develop a deeper understanding of the subject matter. Learner-centered teaching promotes higher-order thinking skills, the ability to analyze complex concepts, and a comprehensive grasp of the material. 3. Lifelong learning skills: Learner-centered teaching equips students with the necessary skills to become lifelong learners. By nurturing curiosity, adaptability, resilience, and independent thinking, this approach empowers students to navigate a rapidly changing world, acquire knowledge beyond the classroom, and embrace continuous personal growth.

In conclusion, student-centered teaching represents a transformative shift in education towards a student-centric model, where individual growth and academic success are prioritized. By fostering an inclusive environment, personalizing instruction, promoting active learning, and providing meaningful feedback, educators can unleash the untapped potential of their students.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 42-46**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 42-46**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Sevil Ağayeva**
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0987-6544-8766
siaghayeva@ada.edu.az

# Tənqidi təfəkkürün humanitar və ictimai elmlərdəki əhəmiyyəti: sosial problemlərin həllində tənqidi təfəkkürün rolu

***Açar sözlər:*** *tənqidi təfəkkür, sosial problemlər, sosial siyasət, kompleks analiz, davamlı inkişaf*
***Keywords:*** *critical thinking, social problems, social policy, complex analysis, sustainable development*

Tənqidi təfəkkür müasir dövrdə elmi idrakın əsas dayaq nöqtələrindən biri hesab olunur. Bu anlayış yalnız məntiqi düşünmə tərzi deyil, həm də məlumatları düzgün təhlil etmək, fərziyyələri qiymətləndirmək, mühakimələri əsaslandırmaq, nəticələri sübutlarla möhkəmləndirmək bacarığını ifadə edir. Xüsusilə humanitar və ictimai elmlərdə tənqidi təfəkkürün rolu daha böyükdür, çünki bu sahələr insan davranışı, cəmiyyətin strukturu və sosial proseslərin mahiyyəti kimi mürəkkəb və çoxfaktorlu məsələləri öyrənir. Bu elmlərdə düzgün nəticəyə gəlmək yalnız faktların toplanması ilə deyil, həm də bu faktların kontekstdə şərhi, siyasi, iqtisadi, mədəni və etik çalarların nəzərə alınması ilə mümkündür.

Humanitar elmlərdə tənqidi təfəkkürün önəmi bir neçə istiqamətdə özünü göstərir. Əvvəla, ədəbiyyat, fəlsəfə, dilçilik kimi sahələr insan düşüncəsinin məhsullarını tədqiq etdiyinə görə burada fərqli mövqelərin müqayisəsi və təhlili mühüm əhəmiyyət daşıyır. Mətni yalnız olduğu kimi qəbul etmək kifayət etmir; mətnin alt qatında gizlənən mənalar, müəllif

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

niyyətinin dərinlikləri, dövrün sosial-siyasi şəraiti ilə əlaqələr müəyyən edilməlidir. Tənqidi təfəkkür bu prosesdə tədqiqatçıya təqdim edilən informasiyanın zahiri formasından uzaqlaşaraq onun mahiyyətinə nüfuz etməyə imkan verir. Məsələn, bir ədəbi əsərin yalnız süjetini izah etmək elmi təhlil deyil; əsərdəki simvolların, metaforaların, ideyaların sosial reallıqlarla necə əlaqələndiyini anlamaq üçün tənqidi yanaşma tələb olunur.

İctimai elmlərdə isə tənqidi təfəkkür cəmiyyətin problemlərini düzgün qiymətləndirmək, mövcud qurumların funksionallığını analiz etmək və sosial siyasətlərin effektivliyini ölçmək üçün əsas vasitədir. Sosiologiya, politologiya, iqtisadiyyat, beynəlxalq münasibətlər kimi sahələrdə problemlərə təkcə nəzəri çərçivədə deyil, həm də empirik məlumatlar əsasında yanaşılır. Burada tənqidi təfəkkür tədqiqatçını stereotiplərin təsirindən qoruyur, məlumatları obyektiv şəkildə təhlil etməsinə kömək edir və nəticələri subyektiv təsirlərdən uzaqlaşdırır. Modern cəmiyyətlərdə informasiya bolluğu, sosial media təsirləri və populist diskursların genişlənməsi fonunda tənqidi təfəkkür yalnız alimlər üçün deyil, bütün vətəndaşlar üçün həyati bacarıq kimi qiymətləndirilir.

Bundan başqa, tənqidi təfəkkür şəffaf idarəçiliyin və demokratik cəmiyyətlərin əsas sütunlarından biridir. Cəmiyyət problemlərini düzgün qiymətləndirə bilən, verilən informasiyanı təhlil etməyi bacaran və rasionallığa əsaslanan vətəndaş kütləsi demokratik proseslərin sağlam şəkildə inkişafına şərait yaradır. Tənqidi düşüncə, həmçinin, manipulyasiya, dezinformasiya, populizm kimi təhlükələrdən cəmiyyəti qoruyan ən güclü vasitələrdən sayılır. Nəticədə, tənqidi təfəkkür yalnız elmi fəaliyyət üçün deyil, həm də sosial rifah üçün fundamental əhəmiyyət kəsb edir.

Tənqidi təfəkkür humanitar və ictimai elmlərin təməl metodoloji prinsiplərindən biridir. Bu sahələrin inkişafı, cəmiyyətin

sosial problemlərinin obyektiv qiymətləndirilməsi və effektiv həlli məhz bu düşüncə tərzinin geniş tətbiqindən asılıdır. Cəmiyyətin intellektual potensialının yüksəlməsi, mədəni və siyasi mühitin təkmilləşməsi, demokratik institutların möhkəmlənməsi və sosial ədalətin təmin olunması tənqidi təfəkkürün geniş yayılması ilə birbaşa əlaqədardır. Bu baxımdan tənqidi düşüncənin inkişaf etdirilməsi həm akademik, həm də ictimai səviyyədə strateji prioritet kimi qəbul edilməlidir.

Sosial problemlərin həllində tənqidi təfəkkürün rolu xüsusi olaraq vurğulanmalıdır, çünki bu cür problemlər sadə izah və standart yanaşmalarla aradan qaldırıla bilmir. Sosial problemlər — işsizlik, yoxsulluq, gender bərabərsizliyi, etnik və siyasi münaqişələr, ekoloji böhran, informasiya manipulyasiyası və digər bu kimi çətinliklər — mahiyyətcə çoxölçülü və çoxamilli struktura malikdir. Onlar müəyyən bir dövrün və ya zümrənin fəaliyyəti ilə məhdudlaşmır; əksinə, uzun illər ərzində formalaşmış tarixi proseslərin, iqtisadi model dəyişikliklərinin, siyasi idarəetmənin xüsusiyyətlərinin və mədəni dəyərlərin birgə təsiri ilə yaranır. Bu səbəbdən sosial problemlərin mahiyyətini başa düşmək üçün emosional reaksiyalar, şəxsi təəssüratlar və ya populist yanaşmalar kifayət etmir. Reallıq həm daha mürəkkəb, həm də daha geniş təhlil tələb edir.

Tənqidi təfəkkür bu mərhələdə sosial problemlərin "görünən tərəfini" aşaraq onların arxa planında duran dərin səbəbləri aşkara çıxarmaq üçün ən mühüm vasitəyə çevrilir. Bu düşüncə tərzi insanı faktlar arasında məntiqi əlaqələr qurmağa, informasiyanı müxtəlif mənbələrdən müqayisəli şəkildə təhlil etməyə, fərqli nəzəri çərçivələrin imkanlarını ölçməyə yönəldir. Məsələn, yoxsulluğu yalnız fərdi çalışqanlığın çatışmazlığı və ya iqtisadi geriliyin nəticəsi kimi izah etmək səthi yanaşmadır. Tənqidi düşüncə burada struktur amilləri – sosial ədalətsizliyi, resurslara qeyri-bərabər çıxışı, əmək bazarının institusional

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

natamamlığını, dövlət sosial siyasətlərinin çatışmazlıqlarını – araşdırmağı zəruri sayır. Bu isə problemi həm daha obyektiv qiymətləndirməyə, həm də onun həlli üçün daha səmərəli strategiyalar hazırlamağa imkan verir.

Məsələn, işsizliyin səviyyəsinin artmasını yalnız iqtisadi səbəblərlə deyil, həm də texnoloji dəyişikliklərlə əlaqələndirən yanaşma tənqidi təfəkkürün klassik nümunəsidir. Müasir dövrdə avtomatlaşdırma və süni intellekt əmək bazarının strukturunu ciddi şəkildə dəyişir, yeni bacarıqlar tələb edir və bəzi ənənəvi peşələri sıradan çıxarır. Bu şəraitdə işsizliyin səbəbini sadəcə "iş yerlərinin az olması" ilə izah etmək yanlışdır. Problemi tam anlamaq üçün təhsil sisteminin tələb olunan kompetensiyalara uyğunlaşdırılmaması, regionlararası qeyri-bərabər inkişaf, kənd yerlərində infrastrukturun zəifliyi, gənclər üçün məşğulluq proqramlarının səmərəsizliyi, həmçinin, dövlətin əmək bazarına yönəlik islahatlarının yetərsizliyi kimi amillər də araşdırılmalıdır. Belə geniş və çoxşaxəli analiz yalnız tənqidi təfəkkürün tətbiqi ilə mümkündür.

Bundan əlavə, tənqidi düşüncə sosial problemlərin həllində innovativ yanaşmaların formalaşmasına təkan verir. Problemləri anlamağın yeni yolları yeni həll formullarını da ortaya çıxarır. Məsələn, gender bərabərsizliyinin yalnız hüquqi normativlərin çatışmazlığı ilə izah olunması yetərli deyil; tənqidi təhlil bu problemin cəmiyyətin mədəni stereotipləri, patriarxal düşüncə formaları, iqtisadi asılılıq və sosial institutların qeyri-funksionallığı ilə sıx bağlı olduğunu göstərir. Bu isə həll üçün təkcə hüquqi islahatların deyil, maarifləndirmə, sosial dəstək, iqtisadi təşviq mexanizmləri və ailə institutu ilə bağlı yeni yanaşmaların işlənməsini tələb edir.

Beləliklə, tənqidi təfəkkür sosial problemlərin yalnız nəticələrinə deyil, onların yaranma dinamikasına, sosial strukturun dərinliklərinə və proseslərin qarşılıqlı təsirinə diqqət

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

yönəldir. Bu isə məhsuldar, davamlı və effektiv sosial siyasətin formalaşmasının əsas şərti kimi çıxış edir.

Nəticə etibarilə, sosial problemlərin həllində tənqidi təfəkkürün tətbiqi həm elmi analizdə, həm də praktiki qərar qəbuletmə prosesində mühüm rol oynayır. Tənqidi düşüncə sosial hadisələrin çoxşaxəli mahiyyətini anlamağa, səbəb-nəticə əlaqələrini obyektiv qiymətləndirməyə və uzunmüddətli, davamlı həll modelləri formalaşdırmağa şərait yaradır. Bu düşüncə tərzi olmadan sosial problemlər yalnız səthi şəkildə dəyərləndirilir və təqdim olunan həllər real nəticə vermir. Buna görə də tənqidi təfəkkürün inkişaf etdirilməsi, həm təhsil sistemində, həm də ictimai idarəçilikdə prioritet istiqamət kimi qəbul edilməlidir. Yalnız belə olduqda cəmiyyətin sosial rifahı və institusional davamlılığı təmin edilə bilər.

**İlkanə Pənahova**
ADPU-nun nəzdində ADPK
https://orcid.org/0000-0003-3537-3619
panahovae@yahoo.com

# Şəxsi məlumatların qorunması: sosial şəbəkələrdə təhlükəsizlik qaydaları

***Açar sözlər:*** *sosial şəbəklər, şəxsi məlumatlar, təhlükəsizlik, qaydalar, internet, şəbəkə mühitləri, ünsiyyət, risk, ictimai paylaşım*
***Keywords:*** *social networks, personal information, security, rules, internet, networking environments, communication, risk, social sharing*

Milyonlarla istifadəçisi olan sosial şəbəkələr bugünkü dünyada əvəzolunmaz hala gəlmişdir və paylaşım, söhbət, onlayn oyunlar oynamaq və yarışmaq kimi sosial fəaliyyətlərin əksəriyyəti artıq bu sosial şəbəkə saytlarında həyata keçirilir. Bunlara istifadəçilərin bəzi məlumatlarını digər istifadəçilərlə paylaşa, dostluq təklifləri göndərə, ünsiyyət qura və müxtəlif sosial media paylaşımlarını paylaşa biləcəyi veb əsaslı xidmətlər daxildir. Barnesə görə, sosial şəbəkələr bir-biri ilə qarşılıqlı əlaqədə olan və fərd üçün psixoloji əhəmiyyətə malik fərdlərdən ibarətdir. Başqa bir tərifdə sosial şəbəkələr "fərdlərin cəmiyyət daxilində özlərini müəyyən etməsinə, eyni mədəni səviyyədəki insanlarla ünsiyyət qurmasına və internet ünsiyyət üsulları vasitəsilə başqaları ilə ünsiyyət qurmasına imkan verən vasitələr" kimi müəyyən edilir. Onlar normal sosial həyatda istifadə edilən müxtəlif jestləri təmsil edən simvolik hərəkətləri nümayiş etdirərək insanlar tərəfindən yaradılan virtual mühitlərdə sosial ünsiyyəti təmin edirlər". Bundan əlavə, sosial

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

şəbəkə saytlarının interfeyslərinin və üzvlüyünün asanlığı və aydınlığı onları geniş istifadəçi dairəsi üçün cəlbedici edir. Bu gün bir çox istifadəçi sosial şəbəkələrdə real kimlikləri altında iştirak edir. Bu, sosial şəbəkə istifadəçilərinə həyat hadisələrini, cari hadisələri və maraqlarını bir çox dostları ilə asanlıqla paylaşmağa və fikirlərini bildirməyə imkan verir. Onlar video və şəkillər kimi sosial məzmun paylaşa və başqalarının paylaşdıqlarından xəbərdar ola da bilərlər.

Həyatımızda istifadə etməkdən zövq aldığımız sosial şəbəkələr köhnə dostlarla əlaqə qurmaq, dostlaşmaq, qruplar yaratmaq, özümüz və ideyalarımız haqqında paylaşmaq və müxtəlif fəaliyyətlərlə məşğul olmaq kimi üstünlükləri təklif etməklə yanaşı, davranışlarımızın təhlil edilməsinə imkan vermək, düşmənlərimiz üçün fürsətlər yaratmaq, təhdidlər almaq və şəxsi məlumatlarımızı paylaşaraq təhlükəsizliyimizi təhlükəyə atmaq kimi risklər də daşıyır.

İnternet istifadəçilərinin sayının artması ilə sosial şəbəkə saytları həyatımızın hər bir sahəsinin bir hissəsinə çevrilib və onlardan istifadə getdikcə daha geniş yayılmaqdadır.

Facebook, Twitter, YouTube, LinkedIn, Google+, Instagram, Flickr, Myspace, Blogger tez-tez istifadə olunan sosial şəbəkələrdir. Bu sosial şəbəkələr insanların bir-biri ilə ünsiyyət qurma və məlumat paylaşma tərzini dəyişdirib. Sosial şəbəkə istifadəçiləri onlara xeyli vaxt sərf edirlər. İştirakın məqsədi hər bir istifadəçi üçün fərqli olsa da, bu gün onlar ümumiyyətlə şəxsi həyatını başqaları ilə bölüşmək, cari hadisələri və siyasəti izləmək və bu məsələlərlə bağlı fikirlərini ifadə etmək üçün bir vasitə kimi istifadə olunur. Çünki sosial şəbəkə mühitləri bu imkanları təmin etmək üçün yeni bir fürsətə çevrilib.

Blekey və Çuya görə, təhsildə sosial şəbəkələrin istifadəsinin tələbələr, akademiklər və ali təhsil müəssisələri üçün

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

faydaları var. Tədqiqatçılar hesab edirlər ki, sosial şəbəkələr öyrənmə və tədris təcrübələrində ünsiyyət bacarıqlarını və sosial əlaqəni artırır və beləliklə, əməkdaşlıq öyrənməsini asanlaşdırır. İstifadəçi dostu interfeysləri və onların istifadəsinin asanlığı səbəbindən, onlar tələbələr və akademiklər tərəfindən asanlıqla və ucuz istifadə olunur. Onlar sadə addımlarla məlumat paylaşmaq üçün qruplar yaratmaq, tədris təcrübələrini zənginləşdirmək, tələbələrin öyrənməsini dəstəkləmək və müəllimlərə tədris və qiymətləndirmə proseslərində kömək etmək kimi çoxsaylı üstünlüklər təklif edirlər. Bu gün sosial şəbəkələrdən yeniyetmələr və böyüklər daha çox istifadə edirlər. Gənclər İnstagram, Facebook və YouTube kimi sosial şəbəkə saytlarını gündəlik həyatlarının bir hissəsi hesab edirlər. Onlar şəxsi həyatlarını bölüşmək və özlərini tanımadıqları insanlarla tanış etmək üçün sosial şəbəkələrdən istifadə edirlər. Ən məşhur sosial şəbəkələrdən biri olan Facebook, istifadəçilərə müxtəlif icazə səviyyələrinə malik istifadəçilər tərəfindən yaradılan şəbəkələrdə şəxsi və ya ictimai paylaşım vasitəsilə bir-biri ilə əlaqə qurmağa, qruplara qoşulmağa və resursları başqaları ilə paylaşmağa imkan verən onlayn sosial şəbəkə proqram təminatıdır. Digər onlayn sosial şəbəkə saytlarına (məsələn, Friendster və MySpace) bənzər şəkildə, istifadəçilər özlərini onlayn profildə təqdim edir, dostlaşır və başqalarının profillərinə və ya sosial məzmuna məlumat və ya şərhlər yerləşdirirlər.

Twitter, cari hadisələri və xəbərləri öyrənmək, veb sayt ünvanlarını paylaşmaq, ani düşüncələri bölüşmək, bir hadisəni və ya insanı izləmək, dil öyrənmək, başqaları ilə müzakirə etmək və əməkdaşlıq etmək daxil olmaqla müxtəlif məqsədlər üçün effektiv şəkildə istifadə edilən bir sosial şəbəkədir.

2003-cü ildə qurulan Myspace, sevimli musiqi qrupları ilə əlaqə qurmaq istəyənlər üçün tez-tez istifadə edilən sosial şəbəkə kimi tanınır.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Üzvlərə profillərində foto, video və musiqi paylaşmağa imkan verir. YouTube sosial şəbəkə saytında video paylaşma sistemi mövcuddur. Sayt üzvləri və ya sayta daxil ola bilən hər kəslə hər cür video formatında slaydlar, animasiyalar, treylerlər və həvəskar görüntülər paylaşmaq imkanı təqdim edir. İstifadəçilər yazılara şərhlər əlavə edə bilərlər.

Sosial şəbəkə saytları bir çox insan, xüsusən də gənclər tərəfindən istifadə olunur. Faydalar təklif etsələr də, bəzi risklər də yaradırlar. İstifadəçilər məlumatlarından zərərli məqsədlər üçün istifadə edə biləcək şəxslərdən qorunmalıdırlar. Bu məqsədlə:

• Məlumat icazəsiz şəxslərdən gizli saxlanılmalıdır.

Onlayn məxfiliyin qorunması asan iş deyil. İnternetdə gəzərkən edilən bütün alış-verişlər və ya göndərilən e-poçtlar üçüncü tərəflər tərəfindən izlənilə bilər.

İnsanlar sosial şəbəkələrdə şəkillərini, yeməklərini və içkilərini, hətta şəxsi həyatları haqqında məlumatları paylaşırlar. Bəzən bunu bilmədən edirlər, bəzən isə başqalarına nə qədər sosial olduqlarını göstərmək üçün edirlər. Bu məlumat zərərli şəxslərin əlinə keçdikdə, müxtəlif məqsədlər üçün istifadə edilə bilər. Facebook-da bir səhifəni bəyəndiyiniz zaman dərhal başqa bir əlaqəli səhifə təklif oluna bilər. Hətta yan tərəfdə görünən reklamlar da məlumatınıza əsasən seçilir və dərc olunur. Bu vəziyyətdən qaçmaq mümkün deyil, çünki məlumatlarınızı silsəniz və ya hesablarınızı bağlasanız belə, məlumatlarınız verilənlər bazasından silinmir. Belə bir mühitdə təhlükəsizlik və məxfilik həlləri getdikcə daha vacib hala gəlir.

• Məlumatlar naməlum tərəflər tərəfindən dəyişdirilməməlidir. Ünsiyyət zamanı məlumatlar dəyişdirilməməli və məlumatların bütövlüyü üçüncü tərəflər tərəfindən pozulmamalıdır.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

• Məlumata giriş yalnız mənfi nəticələrə səbəb olmayacaq şəxslərə təmin edilməlidir.

• İstifadəçilər arasında qarşılıqlı əlaqələrin üçüncü tərəflər tərəfindən əldə edilməsinin qarşısı alınmalıdır.

Sosial şəbəkə istifadəçilərinin sayı hər gün artır və bu saytlar həyatımızda mühüm yer tutub.

Sosial şəbəkələr məlumat toplamaq məqsədilə hakerlər, kiber mühəndislər və spamçılar tərəfindən hədəfə alınıb. Buna görə də, sosial şəbəkələrdə görüləcək tədbirlərdən xəbərdar olmaq lazımdır. Bundan əlavə, ailələr, təhsil müəssisələri və dövlət qurumları bu problemlərdən qorunmaq üçün birgə çalışmalıdırlar.

Əvvəla, istifadə ediləcək sosial şəbəkə diqqətlə seçilməlidir. Üzv olmazdan əvvəl məxfilik siyasətini, istifadə şərtlərini və xüsusi şərtləri oxumalısınız. Şəxsi məlumatların üçüncü tərəflərlə hansı şərtlər altında paylaşılacağından xəbərdar olmalı və üzvlük prosesinə başlamazdan əvvəl qərarınızı müvafiq olaraq verməlisiniz.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Nüşabə Seyid**
ADPU-nun nəzdində ADPK
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-2228-5655
s_nushaba@yahoo.com

# Tələbələrin tənqidi düşünmə qabiliyyətlərinin inkişafında interaktiv təlim üsullarının əhəmiyyəti

***Açar sözlər:*** *interaktiv təlim, tənqidi düşüncə, ali təhsil, tədris metodları, peşəkar səriştələr, tələbəyönümlü təhsil*
***Keywords:*** *interactive learning, critical thinking, higher education, teaching methods, professional competencies, student-oriented education*

Ali və orta ixtisas təhsil müəssisələrinin bakalavriat və subbakalavriat səviyyələrində interaktiv tədris, tələbələrdə geniş kommunikativ səriştələr spektrinin formalaşmasına yönəlmiş kompleks və sistemli təhsil yanaşmasıdır. Bu metodun əsas məqsədi tələbələrdə tənqidi düçüncə tərzini formalaşdırmaq, onlarda həm şifahi, həm də yazılı formada sərbəst və inamlı ünsiyyət bacarıqlarını təmin etmək, həmçinin, peşə və şəxsi həyatda qarşılaşa biləcəkləri müxtəlif situasiyalarda effektiv ünsiyyət qurmaq qabiliyyətini inkişaf etdirməkdir. Bu yanaşmanın tətbiqi nəticəsində tələbələr yalnız nəzəri bilikləri mənimsəməklə məhdudlaşmır, həm də tənqidi təfəkkür əsasında həmin bilikləri real iş şəraitində praktik olaraq tətbiq etməyi öyrənirlər. İnteraktiv tədris prosesi zamanı tələbələr ixtisaslaşmış bilik və bacarıqları dərinləşdirir, eyni zamanda müasir əmək bazarının tələblərinə uyğun olan kritik düşünmə, problemlərin həlli və qərar qəbuletmə kimi universal bacarıqlara yiyələnirlər.

Peşə hazırlığı kontekstində bu yanaşma tələbələrə real iş mühitində uğurla fəaliyyət göstərə bilmək üçün zəruri olan praktik vərdişlər qazandırır. Buraya müxtəlif sahələrdə ünsiyyət bacarıqlarının tətbiqi, işgüzar yazışmaların səmərəli və düzgün şəkildə aparılması, həmçinin, komandada işləmə, peşəkar müzakirələrdə iştirak etmə, təqdimatlar hazırlayıb təqdim etmə və effektiv danışıqlar aparmaq kimi fəaliyyətlər daxildir. Bundan əlavə, interaktiv tədris tələbələrə öz sosial bacarıqlarını davamlı olaraq təkmilləşdirmək üçün güclü əsas yaradır. Bu metod, tələbələrin müstəqil öyrənmə, özünütəhlil və özünütəşkiletmə bacarıqlarını inkişaf etdirməklə onların gələcəkdə həyat boyu öyrənmə prosesinə aktiv şəkildə qoşulmalarına zəmin hazırlayır. Bu da pedaqoqlara imkan verir ki, onlarda tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirmək üçün interaktiv təlim üsullarının köməyi ilə onlarda sosial və emosional səriştələrini gücləndirsin.

Tələbələr interaktiv təlim üsulları vasitəsilə zəruri alətlər və metodikaları mənimsəməklə yanaşı, tənqidi düşünmə qabiliyyətlərini də inkişaf etdirir. Bu isə onlara təkcə mövcud biliklərini dərinləşdirmək deyil, həm də yeni bilik və bacarıqlar əldə etmək imkanını verir; onlar xarici dildə müxtəlif növ ədəbiyyat mənbələri, informasiya resursaları ilə işləməyi, məlumatları tənqidi şəkildə təhlil etməyi, həmçinin, həmin materialın yaradıcı və analitik baxımdan dərk edilməsini öyrənirlər. Bu bacarıqlar tələbələrin müstəqil şəkildə tədqiqat aparmaq və problemləri həll etmək qabiliyyətlərini inkişaf etdirərək onların intellektual və peşəkar potensiallarını artırır. Bununla yanaşı, bu təhsil yanaşması tələbələrdə mədəniyyətlərarası səriştənin inkişafına əhəmiyyətli dərəcədə töhfə verir. Tələbələr beynəlxalq mühitdə ünsiyyətin spesifik xüsusiyyətlərini daha yaxşı anlamağı öyrənir və müxtəlif mədəni kontekstlərə uyğunlaşmaq üçün vacib bacarıqlar əldə edirlər.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Bu, onların qlobal perspektivlərə açıq olmasını təmin edir və müxtəlif mədəniyyətlərin nümayəndələri ilə empatiya qurmaq, əməkdaşlıq etmək və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmaq kimi mühüm səriştələri formalaşdırır. Müasir qloballaşmış dünyada bu keyfiyyətlər xüsusilə vacibdir, çünki peşəkar fəaliyyətin uğuru tez-tez müxtəlif mədəniyyət və millətlərin nümayəndələri ilə səmərəli qarşılıqlı əlaqə qurmaq qabiliyyətindən asılı olur və tələbələr həm şəxsi, həm də peşəkar həyatlarında daha geniş perspektivlərə sahib olur, beynəlxalq əməkdaşlıq mühitində uğurla fəaliyyət göstərə biləcək yüksək səviyyəli mütəxəssislər kimi yetişirlər.

Müasir qloballaşmış dünyada ixtisasa yiyələnmək, inkişaf etmiş ünsiyyət bacarıqları ilə birlikdə, məzunun peşəkar uğurunun və cəmiyyətdə öz yerini tapmasının əsas amilinə çevrilir. Bu kompleks səriştələr yalnız geniş karyera perspektivləri açmır, həm də şəxsi inkişaf, özünüifadə və özünü reallaşdırma üçün möhkəm təməl yaradır. İxtisaslaşma ilə ünsiyyət bacarıqlarının inteqrasiyası tələbələrə yalnız seçdikləri sahədə mütəxəssis olmaqla kifayətlənməyərək, həm də dinamik sosial və peşəkar mühitlərə uyğunlaşmaq qabiliyyəti qazandırır. Bu məsələ müasir sosial tələblər və əmək bazarının sürətlə dəyişən şəraiti fonunda xüsusi aktuallıq kəsb edir. Cəmiyyət hərtərəfli inkişaf etmiş, kreativ düşüncəyə malik və daim özünü təkmilləşdirməyə, yeniliklərə uyğunlaşmağa qadir mütəxəssislərə böyük ehtiyac duyur. Bu kontekstdə tələbələrin əldə etdiyi bilik və bacarıqlar onların peşəkar inkişaf üçün geniş imkanlar əldə etməsinə şərait yaradır. Bir çox ixtisaslarda bu bacarıqlar, tələbələrə gələcək mütəxəssis kimi beynəlxalq layihələrdə fəal iştirak etməyə, qabaqcıl təcrübələri mənimsəməyə və müxtəlif mədəniyyətlərdən olan həmkarlarla səmərəli əməkdaşlıq qurmağa imkan verir. Həmçinin, bu yanaşma təhsil sahəsində karyera qurmaq istəyənlər üçün də güclü bir baza təşkil edir. Onlar

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 52-55
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 52-55
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

qabaqcıl pedaqoji yanaşmaları mənimsəyərək, müasir təhsil tələblərinə uyğun şəkildə fəaliyyət göstərən uğurlu pedaqoq və ya təlimçi olmaq üçün zəruri səriştələrə yiyələnirlər. Nəticədə, bu kompleks yanaşma məzunları yalnız öz sahələrində liderliyə hazırlamaqla qalmır, həm də onların şəxsi və peşəkar potensialını tam şəkildə reallaşdırmasına şərait yaradır.

Bundan əlavə, ixtisasa peşəkar şəkildə yiyələnmək yalnız nəzəri və praktiki biliklərin əldə edilməsinə deyil, həm də geniş dünyagörüşünə, inkişaf etmiş tənqidi təfəkkürə və mədəniyyətlərarası dialoq qabiliyyətinə malik bütöv şəxsiyyətin formalaşma-sına şərait yaradır. Bu yanaşma insanın həm peşəkar fəaliyyətdə, həm də şəxsi inkişafda uğur qazanması üçün, xüsusilə də bu uğurun fasiləsiz öyrənmə bacarığı və multimədəni mühitdə səmərəli qarşılıqlı əlaqə qurma qabiliyyətindən asılı olduğu müasir dövrdə mühüm rol oynayır. Bu kontekstdə kommunikativ səriştələrin inkişafı artıq sadəcə əlavə üstünlük deyil, əksinə, peşəkar və şəxsi sahələrdə uğur qazanmaq üçün əsas şərtə çevrilir. Müasir cəmiyyət hərtərəfli inkişaf etmiş, dəyişən şəraitə adaptasiya oluna bilən və müxtəlif mədəniyyətlərdən olan insanlarla məhsuldar şəkildə əməkdaşlıq etməyə qadir mütəxəssislərə böyük ehtiyac duyur. Belə bir yanaşma yalnız ixtisaslı kadr hazırlığını deyil, həm də şəxsiyyətin özünü reallaşdırması üçün möhkəm zəmin yaradır. Nəticədə, bu kompleks səriştələr yalnız peşəkar bilik və bacarıqların təkmilləşdirilməsinə deyil, həm də insanın şəxsi dəyərlərini və qlobal dünyada öz yerini tapmasına töhfə verir. Bu, müasir qlobal çağırışlara cavab verən adaptiv və çoxşaxəli mütəxəssislərin yetişdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır – fasiləsiz öyrənmə, tənqidi təfəkkür və mədəniyyətlərarası ünsiyyət müasir dövrdə uğur qazanmaq üçün ayrılmaz keyfiyyətlər kimi ön plana çıxır.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 56-59**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 56-59**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Shabnam Huseynli**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0002-8371-5257
huseynlisbnem@gmail.com

# Development of Teaching Models in Education Based on the Principles of Justice and Equality

***Keywords:*** *teaching models, justice and equality, strategies, development and personalization, principles of equity, curriculum and program design*
***Açar sözlər****: təlim modelləri, ədalət və bərabərlik, strategiyalar, inkişaf və fərdiləşdirmə, ədalətlilik prinsipləri, kurikulum və proqramlaşdırma*

Education is one of the key social institutions that plays a fundamental role in the development of any society. In the modern era, one of the primary objectives of education systems is to create a learning environment based on the principles of justice and equality. This approach aims to respect students' individual abilities as well as their social and cultural differences, ensuring their holistic development.

The development of teaching models is crucial for enhancing the effectiveness of pedagogical strategies and providing inclusive and personalized learning opportunities. These models are analyzed both theoretically and practically to improve students' academic achievements, develop their social skills, and ensure equal opportunities within the educational process.

The principles of justice and equality in education encompass not only the transmission of academic knowledge but

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

also the development of social and emotional skills, the enhancement of motivation, and the support of personal growth.

The integration of technology into teaching practices facilitates personalized learning and mitigates barriers arising from socio-economic and geographical differences (Cummins, Early, 2022).

Modern educational models are designed by considering both individual and collective needs, emphasizing social justice and equality principles, and promoting the comprehensive and sustainable development of education.

Thus, the development of teaching models aligned with the principles of justice and equality in education is significant not only for knowledge transfer but also for the cultivation of social and emotional skills, the enhancement of individual potential, and the creation of equitable learning opportunities.

In modern education, the implementation of justice and equality principles extends beyond curriculum design to include *assessment methods, classroom management, and institutional policies*. Ensuring fairness in assessment requires developing evaluation systems that recognize diverse learning styles, prior knowledge, and individual progress rather than relying solely on standardized measures. Such practices not only improve academic outcomes but also foster a sense of inclusion and motivation among learners, promoting long-term engagement and self-directed learning.

The evolution of teaching models aligned with justice and equality emphasizes *inclusive pedagogical approaches*, where diversity in socio-cultural backgrounds, learning abilities, and personal experiences is considered in lesson planning and instructional strategies. Models such as differentiated instruction, competency-based learning, and collaborative learning environments are increasingly applied to accommodate

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

varied needs while maintaining high academic standards. By adopting these strategies, educational institutions can ensure that every learner has equitable access to knowledge, skills, and opportunities for personal development.

In modern education systems, the implementation of teaching models based on the principles of justice and equality is not limited to theoretical approaches but also requires practical measures. The main objective of these models is to provide equal opportunities for all participants by considering diverse learning needs, individual abilities, and socio-cultural differences. For the successful implementation of teaching models, methods such as differentiated instruction, team-based projects, problem-solving approaches, and active learning strategies are widely applied.

Differentiated instruction allows educators to tailor learning activities to each participant's learning style, skill level, and interests. Team-based projects and collaborative learning models foster communication, cooperation, and leadership skills. Problem-solving and active learning strategies promote the development of critical thinking, decision-making, and creativity.

Differentiated instruction and team-based projects enhance both academic outcomes and participants' social skills (Brooks, Miles, 2020).

The integration of technology further enhances the effectiveness of these teaching models. Adaptive learning systems, online resources, and digital platforms provide personalized learning pathways, enabling participants to progress at their own pace and according to their strengths. At the same time, technology increases accessibility and inclusivity, reducing barriers caused by social and geographical disparities.

**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

Modern educational models prioritize social justice and equity not only in curriculum design but also in assessment methods and institutional policies (Florian, Linklater, 2010).

The sustained success of teaching models also relies on the professional development of educators and administrators. This enables them to implement inclusive and equitable teaching strategies effectively, recognize implicit biases, and actively engage all participants in the learning process. Furthermore, educational policy reforms, institutional support, and community collaboration are essential to maintain the continuity and consistent application of these models.

In the future, the development of teaching models aligned with justice and equality principles will increasingly involve personalized learning technologies, accessible online platforms, and multicultural pedagogy. These approaches will continue to promote academic, social, and emotional development while ensuring equitable learning opportunities for all participants.

Thus, teaching models based on the principles of justice and equality are not only a means of transferring academic knowledge but also a strategic approach that fosters social, emotional, and personal growth, creating an inclusive and sustainable learning environment.

## References

1. Brooks, R., Miles, S. (2020). *Teaching and Learning for Social Justice and Equity in Higher Education: Foundations*. Springer.
2. Cummins, J., Early, M. (2022). *Inclusive Education, Social Justice, and Multilingualism*. Springer.
3. Florian, L., Linklater, H. (2010). *Inclusion, Equity, Diversity, and Social Justice in Education*. Springer.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Aysel Əliyeva**
Sumqayıt Dövlət Universiteti
https://orcid.org/0009-0001-2626-7980
aliaysel2025@gmail.com

# Nağıl və bədii ədəbiyyat vasitəsilə uşaqlarda əxlaqi dəyərlərin aşılanması

***Açar sözlər:*** *əxlaqi dəyərlər, nağıl, uşaqlar, tərbiyə, bədii ədəbiyyat, şəxsiyyət, mənəviyyat*
***Keywords:*** *moral values, fairy tale, children, upbringing, fiction, personality, spirituality*

Məktəbəqədər yaş dövrü uşağın şəxsiyyətinin formalaşdığı, mənəvi və sosial dəyərləri mənimsədiyi mühüm mərhələdir. Bu dövrdə uşaqlarda əxlaqi dəyərlərin formalaşdırılmasında bədii ədəbiyyatın, xüsusilə də xalq nağıllarının rolu əvəzsizdir. Nağıllar uşaqlara xeyirlə şəri ayırd etməyi, ədalət, mərhəmət, əməksevərlik və səmimilik kimi dəyərləri qavramağı öyrədir. Nağıl qəhrəmanlarının davranışları vasitəsilə uşaq həyat hadisələrinə düzgün qiymət verməyi və mənfi keyfiyyətlərdən uzaq olmağı mənimsəyir.

Uşaqlarda əxlaqi tərbiyə onların şəxsiyyətinin formalaşmasında aparıcı rol oynayır. Erkən yaşlardan uşaqlara mənəvi dəyərlərin aşılanması onların gələcəkdə sosial, mədəni və mənəvi cəhətdən formalaşmış fərd kimi yetişməsini təmin edir. Müasir pedaqogika elmi sübut edir ki, mənəvi dəyərləri öyrətməyin ən təsirli yollarından biri bədii ədəbiyyat və xalq yaradıcılığı nümunələrindən – xüsusilə nağıllardan istifadə etməkdir.

Nağıllar uşaqların dünyanı anlama tərzinə uyğun qurulmuş ədəbi formadır. Uşaq reallığı nağıl qəhrəmanlarının timsalında

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 60-63**
***Research in Science and Education*** **XI Republican Scientific Conference / 19 december, 2025 / 60-63**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

qəbul edir, xeyirin və şərin toqquşmasını müşahidə edir və nəticə çıxarır. Məsələn, "Göyçək Fatma" nağılında xeyirxahlıq və səbir mükafatlandırılır, "Tülkü və qurd"da hiylə və yalan cəzalanır, "Cırtdan"da cəsarət və zəka qalib gəlir. Bu nümunələr uşağın dəyərlər sisteminin təməlini formalaşdırır.

Beləliklə, nağıl tərbiyə vasitəsi olmaqla yanaşı, həm də uşağın təfəkkür, nitq və davranış inkişafına çoxşaxəli təsir göstərən bir mədəniyyət daşıyıcısıdır.

*Nağılların pedaqoji əhəmiyyəti*. Nağıllar uşağın mənəvi aləmini formalaşdırmaqda mühüm rol oynayır. Onlar uşaqlara doğru ilə yanlışı, yaxşı ilə pisi, mərhəmət ilə zalımlığı fərqləndirməyi öyrədir. Bu proses tərbiyəçi və ya müəllimin uşağa oxuduğu və müzakirə etdiyi nağıl vasitəsilə baş verir. Nağıllar uşağın emosional zəkasını inkişaf etdirir. Uşaq qəhrəmanlara emosional reaksiya verir: Göyçək Fatmaya yazığı gəlir, Cırtdanın cəsarətinə sevinir, tülkünün hiyləsinə qəzəblənir. Bu cür hisslər uşağın empatiya bacarığını artırır və başqalarının duyğularını anlamağa kömək edir.

Məsələn, "Keçəl və Hiyləgər Tülkü" nağılında uşaqlar öyrənir ki, ağıllı və çalışqan olmaq təkəbbür və hiylədən daha dəyərlidir. "Sehrli alma" nağılında isə xeyirxah davranış və yardımsevərlik mükafatlandırılır, bu da uşaqlarda paylaşmaq və kömək etmək istəyini gücləndirir.

*Nağıl qəhrəmanlarının mənəvi nümunə rolu*. Nağıl qəhrəmanları uşaqlar üçün həm ideal obraz, həm də xəbərdarlıq simvoludur. Məsələn, "Cırtdan" obrazı zəif görünən, lakin ağlı və cəsarəti ilə qalib gələn bir uşağı təmsil edir. O, uşaqlara öyrədir ki, əsas güc fiziki deyil, ağıl və iradə gücüdür.

"Göyçək Fatma"da isə təmənnasız yaxşılıq edən, əziyyətə qatlaşan qəhrəman sonunda mükafatlandırılır. Bu, uşaqlara səbirlə və xeyirxahlıqla hərəkət etməyi aşılayır.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Əks obrazlar – məsələn, "ögey bacı", "hiyləgər tülkü", "divlər" – mənfi davranışların nəticəsini göstərir. Beləliklə, uşaq həm müsbət, həm də mənfi obrazlardan mənəvi dərs çıxarır.

Pedaqoqların fikrincə, nağılın əsas məqsədi uşağa hazır bilik vermək deyil, düşünmə və nəticə çıxarma vərdişini formalaşdırmaqdır. Uşaq "niyə tülkü cəzalandı?" və ya "Cırtdan necə xilas oldu?" kimi sualları düşündükcə, onun mənəvi təfəkkürü inkişaf edir.

*Nağılların psixoloji təsiri.* Psixoloji baxımdan nağıllar uşağın qorxu və narahatlıqlarını azaldır, müsbət emosiyalar yaradır. Məsələn, qorxulu hadisələrlə dolu nağıllarda nəticədə həmişə xeyir qalib gəlir. Bu, uşağa təhlükəsizlik və ümid hissi aşılayır.

Nağıl dinləyən və ya səhnələşdirən uşaq öz hisslərini ifadə etməyi öyrənir, bu da onun sosial adaptasiyasını asanlaşdırır. Müasir tərbiyəçilər nağıllardan yalnız oxu zamanı deyil, həm də oyun, rollu fəaliyyət, rəsmlə ifadə və teatrlaşdırma proseslərində istifadə edirlər. Məsələn, "Tülkü və qurd" nağılını səhnələşdirən uşaqlar hiylənin nəticəsini canlı şəkildə dərk edir, "Cırtdan"ı canlandıran uşaq isə cəsarət hissini yaşayır. Bu cür interaktiv fəaliyyətlər uşağın davranışında əxlaqi dəyərlərin real tətbiqinə səbəb olur.

*Nağıllar vasitəsilə milli və mənəvi kimliyin qorunması.* Xalq nağılları təkcə əxlaqi tərbiyə vasitəsi deyil, həm də milli kimliyin daşıyıcısıdır. Onlar uşaqlara doğma dilin gözəlliyini, xalqın dünyagörüşünü və adət-ənənələrini öyrədir. Nağıllarda ata-anaya hörmət, böyüyə ehtiram, vətən sevgisi və təbiətə qayğı kimi milli-mənəvi dəyərlər tərənnüm olunur. Məsələn, "Əhməd və divlər" nağılında qəhrəmanın cəsarəti və ailəsinə sədaqəti, "Qızıl alma"da isə əmək və dürüstlüyün mükafatlandırılması bu dəyərlərin uşaqlara təbii yolla ötürülməsini təmin edir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Beləliklə, nağıl uşağın həm mənəvi, həm də milli kimliyinin formalaşmasında mühüm vasitədir. O, uşağa kim olduğunu, hansı dəyərlərə sahib olmalı olduğunu öyrədir.

Nağıl uşağın mənəvi tərbiyəsində ən təsirli vasitələrdən biridir. Nağıl qəhrəmanlarının davranışları uşaqlara doğru qərar verməyi, səbirli olmağı, başqasına kömək etməyi və ədalətli davranmağı öyrədir. Uşaq nağıllar vasitəsilə həyatı tanıyır, dəyərləri davranışa çevirir və şəxsiyyət kimi formalaşır. Nağıl tərbiyəsinin sistemli şəkildə həyata keçirilməsi uşaqlarda mərhəmət, əməksevərlik, ədalət, dostluq və insanpərvərlik kimi keyfiyyətlərin formalaşmasına kömək edir. Müəllim və tərbiyəçilərin vəzifəsi nağılları uşaqların yaş səviyyəsinə uyğun seçmək, onları müzakirə və fəaliyyətlərlə zənginləşdirməkdir.

Beləliklə, nağıl sadəcə ədəbi janr deyil – o, uşağın daxili aləmini formalaşdıran, onu xeyir və gözəlliyə yönəldən mənəvi tərbiyə vasitəsidir. Uşaqlara nağıl oxumaq onların təkcə fantaziyasını deyil, həm də ürəyini, düşüncəsini və davranışını tərbiyə etmək deməkdir.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 64-66
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 64-66
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Aygün Xudiyeva**
Naxçıvan Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0008-5003-0933
kurdovaaygun@gmail.com

# Rəqəmsal dövrdə valideynlik: uşaq texnologiya istifadəsinin idarə edilməsi

***Açar sözlər:*** *uşaq, texnologiya, rəqəmsal valideynlik, ekran vaxtı, rəqəmsal savadlılıq*

***Keywords****: child, technology, digital parenting, screen time, digital literacy*

Uşaqların yaşadıqları dövr və onları əhatə edən mühit şəraiti onların inkişafına birbaşa təsir edən amildir. Zamanın dəyişməsi ilə birlikdə uşaqların məşğuliyyətləri, onları təsirləndirən mühit faktorları da dəyişərək onların inkişaf prosesinə təsir göstərməkdədir. Rəqəmsal inqilabla ortaya çıxan texnoloji yeniliklər, ilk növbədə uşaqlar olmaqla, hər yaşda insanın həyat tərzini dəyişdirməyə başlamışdır. İnternet, smartfon, kompüter, planşet, rəqəmsal oyunlar və sosial media platformaları müsbət istifadələri ilə yanaşı, uşaqları fiziki, sosial, emosional və psixoloji baxımdan təsirləndirən bir struktura çevrilmişdir.

Dünya miqyasında rəqəmsal alətlərin yayılması və bu alətlərlə keçirilən vaxt getdikcə artır. Xüsusilə gənclər və uşaqlar arasında bu müddətlərin diqqətçəkici səviyyələrə çatdığı müşahidə olunur. İnkişaf prosesi boyunca uşaqlarını müxtəlif mənfi təsirlərdən qorumaq və onların inkişafını dəstəkləmək məsuliyyətinə sahib olan valideynlər üçün bu sahədə yeni bir öhdəlik yaranmışdır (Akbaş, Dursun, 2020, s. 2251). Rəqəmsal vasitələrin düzgün istifadəsi və uşaqları bu alətlərin zərərli təsirlə-

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

rindən qoruma anlayışı valideynlər üçün yeni məsuliyyət sahəsi yaradaraq "rəqəmsal valideynlik" anlayışının meydana çıxmasına səbəb olmuşdur.

Rəqəmsal texnologiyaların uşaqların gündəlik həyatına daxil olması onların emosional və sosial inkişafına təsir etməsi getdikcə daha geniş qəbul olunur. Eyni zamanda, bu yeni texnologiyanın uşaqların öyrənmə prosesində yeni imkanlar yaratdığı da məlumdur (Mustafaoğlu və ark., 2018, 228).

Eyni zamanda, rəqəmsal vasitələr həyati əhəmiyyət daşıyır və uşaqların erkən yaşlardan etibarən şüurlu şəkildə istifadə etməsi vacibdir. Bu baxımdan, 2 yaşdan kiçik uşaqların rəqəmsal cihazlarla təması olmamalıdır. İki yaşdan sonra isə interaktiv rəqəmsal mühitlərdə uyğun müddət və məzmunda qarşılıqlı təsir təmin edilə bilər.

Valideynlər və cəmiyyət rəqəmsal dünyanın tələblərini və xüsusiyyətlərini öyrənməli, uşaqları düzgün istiqamətləndirməlidir. Uşaqların rəqəmsal oyunları təhlükəsiz istifadə etməsi üçün oyunların qiymətləndirilməsi və məzmununun bilinməsi vacibdir (Odgers, 2019, s. 675).

Rəqəmsal vasitələr və incəsənət təhsili birləşdirilərək sistemli təlimlər aparılmalı və maarifləndirmə cəmiyyətdə yayılmalıdır. Valideynlər uşaqlar üçün müsbət rəqəmsal rol modeli olmalı, yerli idarələr isə uşaqlara yönəlmiş proqram və məkanlar yaratmalıdır (Aral, 2022, 1135).

Valideynlərin öz rəqəmsal savadlılıq səviyyəsini artırması və uşaqları idman, incəsənət kimi sahələrdə fəal etməsi də vacibdir.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

## Ədəbiyyat

1. Akbaş, Ö.Z., Dursun, C. (2020). Texnologiyanın ailəyə təsiri: dəyişən ailədə rəqəmsal valideyn və uşaqları. *Turkish Studies-Social*, 15(4), 2245-2265.
2. Aral, N. (2022). Rəqəmsal dünyada uşaq olmaq. *TRT Akademi*, 7(16), 1134-1153.
3. Mustafaoğlu, R., Zirek, E., Yasacı, Z., Özdinçler, A.R. (2018). Rəqəmsal texnologiyanın istifadəsinin uşaqların inkişafı və sağlamlığına mənfi təsirləri. *Addicta: The Turkish Journal on Addictions*, 5(2), 227-247.
4. Odgers, C.L. (2019). Rəqəmsal alətlər yeniyetmə sağlamlığı tədqiqatında hələ niyə inqilab yaratmayıb və biz nə edə bilərik. *Journal of Research on Adolescence*, 29(3), 675-681.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 67-69
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 67-69
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Qonçə Hacıyeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-8748-2250
hajiyeva.goncha@mail.ru

# Texnologiyanın dil öyrənmə üsullarının inkişafında rolu

***Açar sözlər:*** *ingilis dili, texnologiyanın rolu, dil öyrənmə tətbiqləri, dil öyrənmə motivasiyası*
***Keywords:*** *English language, role of technology, language learning applications, language learning motivation*

Bu gün texnologiya həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Digər sahələrdə olduğu kimi texnologiyanın inkişafı təhsil sahəsində də əhəmiyyətli sayda izlər buraxmışdır. Texnologiyanın inkişafı ilə dil öyrənmə üsulları çox sürətlə dəyişmiş və yeni imkanlarla zənginləşmişdir. İngilis dili dünya üzrə ən çox öyrənilən dillərdən biri olduğu üçün texnologiyanın ingilis dilinin öyrənmə üsullarına təsiri xüsusu diqqətə layiqdir. Texnologiyanın rolu yalnız dilin öyrənmə üsullarının inkişafı ilə kifayətlənmir, həm də öyrənənlərin bu prosesi daha əyləncəli, əlçatan və fərdi şəkildə həyata keçirmələrini təmin edir. Bu tezisdə texnologiyanın ingilis dilinin öyrənmə üsullarına necə təsir göstərdiyini və dil öyrənənlərin nəticələrinə necə müsbət təsir etdiyini araşdıracağıq.

Bir çox öyrənmə üsulları var, lakin onların hamısı hər kəs üçün düzgün seçim deyil. Hər bir şəxsin fərdi xüsusiyyətlərinə uyğun öyrənmə metodunun tətbiqi müsbət nəticə verir. Əks halda, müsbət nəticə əldə etmək mümkün deyildir. Hər bir şagird və ya tələbə azad bir fərd kimi şəxsi qabiliyyətlərini təhlil edir,

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 67-69
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 67-69
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

peşəkar ehtiyaclarını müəyyən edir, öyrənmə imkanlarının üstünlüklərini başa düşür və ona uyğun tədris metodlarını seçir.

İngilis dili dərslərində dil öyrənmədə müasir texnologiyaların istifadəsi mövzusu dil ilə bağlı araşdırma zamanı əhəmiyyətli yer tutur. Bu texnologiyalar tədris prosesini daha maraqlı, effektiv və interaktiv hala gətirərək şagirdlərin və tələbələrin öyrənmə motivasiyasını artırır: 1.*Onlayn kurslar və tətbiqlər:* Onlayn kurslar, interaktiv dərslər və tətbiqlər istifadəçilərə vaxt məhdudiyyəti olmadan və müxtəlif mühitlərdə ingilis dili öyrənmək imkanı verir. Duolingo, Memrise, Babbel, Quizlet, Kahoot kimi tətbiqlər və oyunlar şagirdlərin dil bacarıqlarını inkişaf etdirmək üçün əla vasitələrdir. Bu platformalar şagirdlərə sözləri yadda saxlamaq, qrammatika qaydalarını təkrarlamaq və interaktiv tapşırıqlar üzərində işləmək imkanı verir. 2.*Onlayn qrup fəaliyyətləri və video konfranslar.* Distant təhsil formatında ingilis dili dərslərində video konfransların rolu getdikcə artmaqdadır. Zoom, Google Meet və Microsoft Teams kimi platformalar vasitəsilə şagirdlərə qrup şəklində interaktiv öyrənmə imkanları təqdim olunur. Bu, dil bacarıqlarının təkmilləşdirilməsi baxımından əhəmiyyətli fürsət yaradır, çünki şagirdlər bir-birilə ünsiyyət quraraq danışıq təcrübəsi qazanırlar. 3.*Virtual və artırılmış reallıq (VR və AR):* Son zamanlarda virtual reallıq (VR) və artırılmış reallıq (AR) texnologiyaları dil öyrənmə sahəsinə daxil olmuş və öyrənənlərə yeni bir təhsil təcrübəsi təqdim etmişdir. VR texnologiyası sayəsində dil öyrənənlər ingilis dilində danışıq bacarıqlarını real şəraitə bənzər simulyasiyalarla təcrübədən keçirə bilirlər ki, bu da onların dil öyrənməyə marağını əhəmiyyətli dərəcədə artırır. AR isə dil tədrisində daha çox vizual və interaktiv elementlərdən istifadə etməyə imkan verir, dərs materiallarını daha asan mənimsəmələrinə kömək edir. 4.*Təqdimatlar və video dərslər:* Müasir texnologiyalar vasitəsilə müəllimlər öz dərslərini video

və multimedia təqdimatları ilə zənginləşdirə bilərlər. Bu təqdimatlar həm dərs zamanı, həm də təkrarlama məqsədilə şagirdlərə təqdim oluna bilər. YouTube, Vimeo və digər video platformalar dərs materiallarının daha yaxşı başa düşülməsi və daha cəlbedici olması üçün əla vasitələrdir. 5.*Adaptiv təhsil texnologiyaları*. Adaptiv təhsil sistemləri şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşa bilir. Bu texnologiyalar şagirdlərin güclü və zəif tərəflərini analiz edərək onlara xüsusi öyrənmə planları təqdim edir. Bu, şagirdlərin ingilis dili öyrənmə prosesini daha sürətli və effektiv edir.

Texnologiyanın ingilis dilinin öyrənilməsində ən böyük üstünlüklərindən biri, öyrənənlərə daha yüksək motivasiya və maraq yaratmasıdır. Oyunlar, yarışmalar və digər interaktiv fəaliyyətlər vasitəsilə öyrənmə, monotonluğu və təkbaşına öyrənməyi daha əyləncəli və stimullaşdırıcı edir. Eyni zamanda, texnologiya öyrənənlərin öz tempində və şəraitində dil öyrənmələrinə imkan verir. Bu, onlara özlərinə uyğun öyrənmə metodunu tapmağa və öyrənmə müddətini daha effektiv şəkildə idarə etməyə kömək edir.

Araşdırmamızın yekunu olaraq bu nəticəyə gəlirik ki, texnologiya ingilis dilinin öyrənmə üsullarının inkişafında mühüm rol oynayır və bu, yalnız yeni metodların təqdim edilməsi ilə bağlı deyil, həm də öyrənmə prosesinin daha şəxsi, interaktiv və maraqlı hala gətirilməsi ilə əlaqədardır. Onlayn kurslar, tətbiqlər, VR və AR texnologiyaları, süni intellekt və sosial media, ingilis dili öyrənənlərə geniş imkanlar təqdim edir. Bu texnoloji inkişaflar, həmçinin, dil öyrənmə motivasiyasını artırır, öyrənmənin daha effektiv və əyləncəli olmasını təmin edir.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 70-72**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 70-72**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Arifə Sadıxova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-3618-4966
arifa.sadigova78@gmail.com

# İngilis dili dərslərində autentik mətnlərdən istifadənin səmərəli yolları

***Açar sözlər:*** *autentik mətnlər, ingilis dili tədrisi, kommunikativ yanaşma, dil bacarıqları, autentik materiallar*
***Keywords:*** *authentic texts, English language teaching, communicative approach, language skills, authentic materials*

Xarici dili öyrənmədə düzgün material seçimi uğuru artıran əsas ünsürlərdən biridir. Texnologiyanın inkişafı sayəsində material növündə də irəliləmələr olmuşdur. Bu material növlərindən biri də autentik materiallardır. Xarici dili öyrənərkən düzgün autentik mətnlərin seçilməsi çox vacibdir. Əgər ingilis dilini öyrənərkən düzgün autentik mətnlər seçsək, daha çox uğur qazana bilərik.

Xarici dili öyrənərkən istifadə edilən üsullar dil öyrənənin bir çox duyma hissiyyatını işlədir. Bu şəkildə öyrənilən dərs daha effektiv olub daha yaxşı yaddaşda qalır. Edqar Dale araşdırmalarından birində deyir ki: Öyrənmə işinə qatılan duyğu orqanlarımızın sayı nə qədər çoxdursa, o qədər yaxşı öyrənər və o qədər də gec unudarıq. Buna əsasən, insanlar öyrəndiklərinin 83%-ni görmə, 11%-ni eşitmə, 3,5%-ni iyləmə, 1,5%-ni toxunma və 1%-ni dadma duyğusu ilə öyrənirlər. Bu araşdırmaya əsasən Dale bu qənaətə gəlir ki, insanlar oxuduqlarının 10%-ni, eşitdiklərinin 20%-ni, gördüklərinin 30%-ni, həm görüb həm eşitdiklərinin 50%-ni, dediklərinin 70%-ni xatırlayırlar. Bu

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

nümunələrə əsaslanan Dale xarici dili öyrənərkən müxtəlif duyğu orqanlarını hərəkətə gətirərək müsbət nəticə əldə etmək mümkün olduğunu bildirmişdir.

Xarici dili öyrənərkən düzgün material istifadə etmək çox vacibdir. Yalnız dərs vəsaitlərindən istifadə etmək kifayət deyildir. Bu gün xarici dili öyrənərkən müxtəlif növ üsullardan istifadə etmək olar. Bu üsullara aid edə bilərik: dərslərdə istifadə edilən dərsliklər, ağıllı lövhələr, şəkillər və s. Bu gün texnologiyanın inkişafı ilə əlaqədar olaraq xarici dil öyrənmədə hər gün yeni üsullarla qarşılaşırıq. Xarici dilin öyrənilməsində 1960-cı illərdə müxtəlif inkişaf gözə çarpmışdır. 1968-ci ildən autentik materiallardan istifadə edilməyə başlanılmış, 70-ci illərdə daha da məşhurlaşmışdır. Bu illərdə dərs zamanı istifadə olunan bəzi materiallar autentik material olaraq adlandırılmışdır. Xarici dili öyrənərkən autentik materiallar dinləmə, danışma, oxuma və yazıdan ibarət dörd dil öyrənmədə istifadə oluna bilər.

Autentik materialların dərs prosesinə daxil edilməsinin əsas üstünlükləri bunlardır: - Motivasiyanın artırılması: Real həyatdan götürülmüş materiallar tələbələr üçün maraqlıdır və öyrənməyə həvəsləndirir; - Dil mühitinə yaxınlıq: Tələbə dili yalnız “öyrənmir”, həm də yaşayır; - Kontekstual öyrənmə: Sözlər və ifadələr real situasiyada öyrənildiyi üçün daha asan yadda qalır; Kulturoloji biliklərin formalaşması: Mətnlər mədəni reallıqları əks etdirdiyindən öyrənənlər həm də hədəf mədəniyyəti tanıyırlar; - Kreativ düşüncənin inkişafı: Autentik materiallar tələbələri analiz etməyə, nəticə çıxarmağa və tənqidi düşünməyə sövq edir.

Beləliklə, autentik mətnlər yalnız dil öyrənmənin deyil, həm də mədəniyyətlərarası kommunikasiya bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Apardığımız araşdırma onu göstərir ki: - Autentik mətnlər ingilis dili öyrənmənin təbiiliyini və praktik yönümünü artırır; - Onların tətbiqi nəticəsində

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

tələbələrin nitq fəallığı, ünsiyyət bacarığı və dil sərbəstliyi yüksəlir; - Autentik mətnlər üzərində qurulmuş dərslər müasir kommunikativ metodikanın ayrılmaz hissəsidir.

Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, autentik materialların istifadəsi xarici dilin öyrədilməsində çox əhəmiyyətli rol oynayır. Belə ki, bir çox müəlliflərin, pedaqoqların və tədqiqatçıların autentik materiallar haqqındakı fikirlərini araşdırarkən əldə olunan informasiyalar əsasında bu materialların aşağıdakı müsbət xüsusiyyətlərinin olduğunu müəyyənləşdirdik: 1.*Bu materiallar şagirdləri öyrənməyə həvəsləndirir.* 2.*Orijinal mədəni məlumatları ehtiva edir.* 3.*Real dil ünsürlərini və həmin dilin mədəni xüsusiyyətlərini təqdim edir.* 4.*Tədrisə yaradıcı yanaşmanı təmin edir və s.* Autentik materialların bu üstünlüklərini nəzərə alaraq, məktəb dərsliklərində həmin materiallardan istifadə edilməsinin şagirdlərin dil biliklərinin genişlənməsinə, möhkəmləndirilməsinə, şifahi və yazılı nitq bacarıqlarının inkişafına müsbət təsir göstərəcəyi inkar edilə bilməz. Autentik mətnlər ingilis dilinin tədrisində həm dil bacarıqlarının kompleks inkişafına, həm də real kommunikasiya mühitinin formalaşmasına xidmət edir. Müəllimlər bu resurslardan məqsədyönlü və metodik şəkildə istifadə etdikdə dərslərin effektivliyi və tələbələrin motivasiyası əhəmiyyətli dərəcədə artır.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 73-75
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 73-75
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Aynurə Babayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-8928-8684
baynure99@mail.ru

# Şəxsiyyətin formalaşmasında yeniyetməlik dövrünün psixoloji xüsusiyyətləri

***Açar sözlər:*** *yeniyetməlik, şəxsiyyət, psixoloji xüsusiyyətlər, sosial mühit, emosional inkişaf*
***Keywords:*** *adolescence, personality, psychological traits, social environment, emotional development*

Yeniyetməlik dövrü insan həyatının ən mürəkkəb və eyni zamanda ən məhsuldar mərhələlərindən biri hesab olunur. Bu dövrün psixoloji xüsusiyyətləri şəxsiyyətin formalaşmasında həlledici rol oynayır. Yeniyetmələrdə özünüdərk, müstəqillik meyilləri, emosional gərginlik və sosial münasibətlərdə dəyişikliklər bu mərhələnin əsas göstəricilərindəndir. Psixoloqlar qeyd edirlər ki, yeniyetməlik dövrü yalnız bioloji yetkinləşmə ilə məhdudlaşmır, həm də sosial və mənəvi inkişafın intensivləşdiyi bir mərhələdir. Bu yaşda gənclər öz "Mən" obrazını formalaşdırmağa çalışır, dəyərlər sistemini müəyyənləşdirir və gələcək həyat mövqelərini qururlar. Özünüidentifikasiya prosesi, Eriksonun psixososial inkişaf nəzəriyyəsində də vurğulandığı kimi, yeniyetməlik dövrünün əsas psixoloji vəzifələrindən biridir. Bu mərhələdə şəxsiyyətin formalaşması həm ailə, həm məktəb, həm də sosial mühitin təsiri altında baş verir. Müəllimlərin və valideynlərin münasibəti, dost qruplarının təsiri, informasiya texnologiyalarının rolu yeniyetmələrin psixoloji inkişafına birbaşa təsir göstərir.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 73-75
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 73-75
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Yeniyetməlik dövründə emosional dəyişikliklər xüsusi diqqət tələb edir. Bu yaşda gənclər tez-tez özünəinam böhranı, daxili ziddiyyətlər və sosial adaptasiya çətinlikləri ilə üzləşirlər. Psixoloji böhranların səbəbləri arasında həm bioloji dəyişikliklər, həm də sosial mühitin tələbləri mühüm yer tutur. Bu baxımdan, yeniyetmələrin davranışlarının düzgün qiymətləndirilməsi və onlara psixoloji dəstəyin göstərilməsi pedaqoqlar və valideynlər üçün vacibdir.

Şəxsiyyətin formalaşması prosesində emosional intellektin inkişafı da mühüm əhəmiyyət daşıyır. Yeniyetmələr öz hisslərini anlamaq, idarə etmək və başqalarının emosiyalarını dərk etmək bacarığını tədricən mənimsəyirlər. Bu bacarıqlar onların sosial münasibətlərdə uğurlu olmasına, konfliktlərin həllinə və sağlam ünsiyyət qurmasına şərait yaradır. Sosial mühitdə baş verən dəyişikliklər, xüsusilə də informasiya texnologiyalarının geniş yayılması, yeniyetmələrin emosional və sosial inkişafına yeni çalarlar əlavə edir. Sosial şəbəkələrdə özünüifadə, qrup identifikasiyası və virtual münasibətlər yeniyetmələrin şəxsiyyət formalaşmasına təsir edən amillərdən biridir. Mədəniyyət və ictimai dəyərlər də yeniyetməlik dövründə şəxsiyyətin formalaşmasına yön verən əsas faktorlardandır. Gənclərin milli-mənəvi dəyərlərə münasibəti, sosial məsuliyyət hissi və vətəndaşlıq mövqeyi bu dövrdə formalaşır. Bu baxımdan, yeniyetmələrin psixoloji inkişafına yalnız ailə və məktəb deyil, həm də cəmiyyətin ümumi dəyərlər sistemi təsir göstərir. Araşdırmalar göstərir ki, yeniyetmələrin sosiallaşma prosesində mədəniyyətin və ictimai dəyərlərin rolu onların gələcəkdə sosial məsuliyyətli və adaptasiya olunmuş fərdlər kimi yetişməsinə şərait yaradır. Yeniyetməlik dövründə psixoloji xüsusiyyətlərin öyrənilməsi pedaqoji və psixoloji elmlər üçün mühüm əhəmiyyət kəsb edir. Bu dövrdə gənclərin davranışlarının düzgün istiqamətləndirilməsi, onların sosial adaptasiyasına dəstək verilməsi və

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

şəxsiy-yətin sağlam formalaşması üçün elmi əsaslara söykənən yanaşmalar zəruridir. Müasir psixoloji tədqiqatlar göstərir ki, yeniyetməlik dövründə şəxsiyyətin formalaşması yalnız fərdi xüsusiyyətlərdən deyil, həm də sosial mühitin keyfiyyətindən asılıdır.

Nəticə etibarilə, yeniyetməlik dövrü şəxsiyyətin formalaşmasında həlledici mərhələdir. Bu dövrdə baş verən psixoloji dəyişikliklərin dərk edilməsi, gənclərə düzgün istiqamət verilməsi və onların sosial adaptasiyasına dəstək göstərilməsi gələcəkdə sağlam, müstəqil və məsuliyyətli şəxsiyyətlərin yetişməsi üçün vacibdir. Elmi araşdırmalar göstərir ki, yeniyetməlik dövrünün psixoloji xüsusiyyətlərini nəzərə almadan təhsil və tərbiyə prosesini düzgün qurmaq mümkün deyil. Bu səbəbdən, pedaqoqlar, psixoloqlar və valideynlər yeniyetmələrin psixoloji inkişafını diqqətlə izləməli, onların şəxsiyyət formalaşmasına dəstək verməlidirlər.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 76-79
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 76-79
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Aysel Qarayeva**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0006-2047-5945
aiselgarayeva6@gmail.com

# Akademik uğurlara təsir göstərən psixoloji amillər

***Açar sözlər***: *akademik nailiyyət, psixoloji faktorlar, motivasiya, özünəgüvən, intellekt, stressin idarəedilməsi, tələbə - müəllim münasibəti, ailə və sosial mühit, diqqət və yaddaş*

***Keywords***: *academic achievement, psychological factors, motivation, self-confidence, intelligence, stress management, student-teacher relationship, family and social environment, attention and memory*

Akademik uğurlar təkcə bilik, bacarıq və vərdişlərlə məhdudlaşmır. Bu uğuru müəyyən edən əsas nüanslardan biri psixoloji faktorlardır. Tələbənin daxili motivasiyası, emosional halı, diqqət, təfəkkür və yaddaşı kimi əsas psixoloji funksiyaları onun öyrənmə prosesinə birbaşa təsir edir. Elə buna görə də son illər psixologiyada motivasiya, emosional intellekt kimi sahələrin akademik nailiyyətlərin izahında önəmli rolu olmuşdur. Bu tezisdə akademik uğura təsir edən psixoloji amillər haqqında geniş məlumat verilmişdir. Buraya motivasiya, özgüvən, stress və narahatçılıq, diqqət və yaddaş, bununla yanaşı, sosial-psixoloji mühit aiddir. Bu saydıqlarımızın hər birinin tələbənin akademik uğur qazanmasında əhəmiyyətli dərəcədə rolu vardır və hər biri psixoloji gücün formalaşmasında vacibdir. Motivasiya öyrənmə prosesinin hərəkətverici gücüdür. Deci və Ryan-ın özünütəyinetmə nəzəriyyəsinə görə, daxili

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 76-79
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 76-79
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

motivasiya – yəni öyrənməyin özündən zövq alma – akademik uğurun daha güclü proqnozlaşdırıcısıdır. Psixologiyada motivasiya 2 hissəyə ayırd edilir: daxili və xarici motivasiya.

Daxili motivasiya elə bir şeydir ki, tələbənin öyrənməyə olan tələbatını artırır. Bu, daxildən gələn həvəslə bağlıdır. Daxili motivasiyası olan hər tələbə öyrənmə prosesində, istər təhsil mühitində və ya başqa yerdə, qarşısına çıxan hər maneəni rahatlıqla aşa bilir, verilən tapşırıqları səylə və yorulmadan yerinə yetirir. Xarici motivasiya isə burada artıq xüsusilə fərqlənmə, yüksək qiymətləndirmə, tələbə-müəllim münasibətinin rolu da böyükdür. Bir tələbənin akademik nailiyyətlərində uğur qazanmasına təsir edən nüanslardan biri də gördüyü hər bir işin nəticəsinin olmasıdır. Əgər tələbə çalışdığı fənni mənalı bilirsə, öyrənmə prosesi onun üçün daha effektiv olur. Tələbənin özünü necə istiqamətləndirməsi, özünə inanması akademik uğurlara təsiri olduqca çoxdur. Özünü idarə yalnız vaxt bölgüsü deyil, həmçinin, psixoloji cəhətdən də idarə etməyi bacarmaqdır. Zimmerman qeyd edir ki, bir tələbənin vaxtı düzgün bölüşdürə bilməsi onun üçün imtahanın və ya öyrənmə prosesinin daha rahat keçməsinin göstəricisidir. Əks halda, tələbənin özünü idarə etməsi zəif olarsa, bu zaman tələbə öyrənmə prosesində gecikir, həvəsdən düşmüş, eyni zamanda, psixoloji durumu da yetəri qədər yaxşı olmur. Bandura qeyd edirdi ki, tələbənin özünəinamının akademik nailiyyətləri əldə etməsində başlıca rolu vardır. Özünəgüvən yüksək olan tələbələr verilən tapşırıqları səylə yerinə yetirir, yorulmaq bilmir, qazandığı hər uğur ona stimul qazandırır. Emosional intellekt (EQ) insanın özünü bilməsi, idarə etməsi və özünü başqalarının yerinə qoya bilməsi həm təhsil, həm də sosial mühitdə önəmli rolu vardır. Mayer, Salovey və Caruso qeyd edirlər ki, emosional intellekti yüksək olan tələbələr öyrənmə prosesi zamanı stres və ya narahatlığını daha yaxşı idarə edə bilir, sosial mühitlərdə daha doğru münasibət

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

qura bilir, eyni zamanda, psixoloji halını daha düzgün tənzimləyə bilir. Stress bəlli yerə qədər motivasiya rolu oynaya bilər, amma bu, yüksək səviyyədə davam edərsə, bu zaman tələbənin imtahana hazırlığı zamanı yaddaşına, diqqətinə zərər vura bilər. Xroniki stress zamanı kortizol səviyyəsi artdığından tələbələrdə fikir yayğınlığı olur, hazırlaşma prosesində narahatlıq yaşayırlar.

Zeidner göstərir ki, imtahan narahatlığı yüksək olan tələbələr bildikləri informasiyanı belə təqdim etməkdə çətinlik çəkirlər. İmtahan stressini aradan qaldırmaq üçün emosional yöndən insan özünü rahatlatmalı, psixoloji özünü idarəetməni bacarmalıdır. Akademik nailiyyətlərin əldə edilməsində vacib amillərdən biri də insanın diqqət və yaddaşıdır. Tələbənin diqqətini toparlaya bilməməsi, sosial medialardan çoxlu istifadə artıq onun öyrənmə prosesinə ciddi zərər verir, diqqətini tam şəkildə yönəldə bilmir. Belə hallarda diqqəti toplama yolları, yəni, vizual materiallardan istifadə edilməsi, lazimi notların yazılması, aktiv dinləmə diqqəti gücləndirir və informasiyanın uzun müddət yaddaşda qalmasına kömək edir. Verdiyimiz məlumatlarla yanaşı, akademik nailiyyətlərin artmasında, əlbəttə ki, ən önəmli məqamlardan biri ailənin, sosial mühitin dəstəyinin olmasıdır. Ailə və sosial mühit tələbənin akademik uğur qazanmasında əhəmiyyətli rola malikdir. Valideynlərin təzyiq göstərmədiyi, daha azad yaşadığı mühitdə tələbələr daha yaxşı psixoloji hala malik olurlar, bu da akademik uğura birbaşa təsir edir. Tələbə-müəllim münasibətinin sağlam olduğu hər mühitdə istər emosional, istərsə də intellekt cəhətdən tələbələr daha ağıllı, daha bacarıqlı bir mühitdə yetişirlər.

Bu tezisin nəzəri baza icmalı təhsil psixologiyası, motivasiya nəzəriyyələri əsasında aparılan elmi araşdırmalardan ibarətdir. Bu araşdırmalara Banduranın özünəinam (self-efficacy) modeli, Deci və Ryan-ın Özünütəyinetmə Nəzəriyyəsinə (Self-

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 76-79
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 76-79
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Determination Theory), Zimmerman (2002) tərəfindən işlənmiş Özünütənzimləyən Öyrənmə Modelinə əsaslanır. Bundan başqa, Stress və imtahan narahatlığının nəzəri izahı Zeidnerin (1998) işləri üzərində qurulur, Mayer, Salovey və Carusonun təqdim etdiyi Emosional İntellekt modelidir.

Akademik uğur çoxfaktorlu bir prosesdir və bu prosesdə psixoloji amillərin rolu danılmazdır. Özünəinam, emosional intellekt, motivasiya, diqqət və yaddaş funksiyaları və s. tələbənin performansını formalaşdıran əsas amillərdir. Bu amillərin inkişaf etdirilməsi təkcə akademik uğurlara təsir etmir, eyni zamanda tələbənin şəxsi inkişafına da olduqca müsbət təsir edir. Psixoloji vəziyyət gücləndikcə öyrənmə prosesi daha da effektiv olur.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Aygün Babayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-9442-1665
aygun.m.babayeva@sosial.gov.az

# Xəzərin hüquqi statusunun həlli beynəlxalq əhəmiyyətli məsələ kimi

***Açar sözlər:*** *Xəzər dənizi, hüquqi status, diplomatiya, fəaliyyət, geosiyasət*
***Keywords:*** *Caspian Sea, legal status, diplomacy, action, geopolitics*

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi postsovet dövründə region dövlətləri arasında ən mürəkkəb geosiyasi və hüquqi məsələlərdən biri olmuşdur. Dənizin təbii ehtiyatlarının zənginliyi, geostrateji mövqeyi, nəqliyyat imkanları və təhlükəsizlik aspektləri onun hüquqi statusunu beynəlxalq əhəmiyyətli məsələyə çevirirdi. Xəzərin statusu barədə aparılan danışıqlar, bu problemin qarşılıqlı hörmət prinsipləri əsasında həll olunması yolunda Azərbaycan dövlətinin apardığı siyasət, məsələyə xüsusi bir dinamika verir, eyni zamanda siyasi, iqtisadi, texniki və ictimai baxımdan dövlətlər arasında yeni problemlər yaradırdı.

Apardığımız araşdırmalar onu göstərir ki, qısa tarixi dövr ərzində Xəzərətrafı regionda çoxsaylı tarixi hadisələrin cərəyan etməsi dünya dövlətlərinin, eləcə də Xəzəryanı dövlətlərin digər problemlər kimi, Xəzərin statusu məsələsində də qarşılıqlı hörmət prinsipinə əsaslanmaq zərurətini meydana çıxardı.

Məlumdur ki, Azərbaycanın yerləşmiş olduğu region geosiyasi, strateji və iqtisadi baxımdan dünyanın siyasi xəritə-

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

sində əhəmiyyət kəsb edir. Xarici siyasətdə balanslaşdırma siyasətinin əsas olaraq götürülməsi də Azərbaycanın yerləşmiş olduğu regionun həssas olmasından irəli gəlir. Ona görə də dövlətimiz həm qonşuluq siyasətində, həm də digər region ölkələri ilə olan münasibətlərində balanslaşdırılmış siyasət yürütməkdədir. İlk olaraq Azərbaycanın milli maraqlarını önə çəkmək əsas götürülür.

Uzun illərin gərgin müzakirələrindən sonra beş Xəzəryanı ölkə Qazaxıstanın Aktau şəhərində Xəzərin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı çox mühüm sənəd imzaladılar. Bu hadisəyə bir sıra dövlət başçıları tarixi qiymət verdilər. Mütəxəssislər və kütləvi informasiya vasitələri də baş verənlərə böyük maraq göstərdilər. Qərb mətbuatı əldə edilən razılıqları daha çox "siyasi mövqe"dən dəyərləndirməyə çalışır. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və başqa ölkələrin bəzi nəşrləri Xəzərin hüquqi statusunun müəyyənləşməsini Rusiyanın böyük qələbəsi kimi təqdim etməyə cəhd göstərirlər. "The Guardian", "Le Monde", "The New York Times" və başqa nəşrlərdə imzalanan Konvensiyanın Moskvaya verə biləcəyi geosiyasi dividendlərdən bəhs edilir. Ancaq, bizcə, hadisə daha geniş kontekstdə əhəmiyyət kəsb edir. Onu hansısa bir region dövlətinin uğuru kimi təqdim etmək reallığa uyğun deyil.

Nəhayət, uzun illərdir dünyanı narahat edən bir problem də aradan qaldırıldı. "Xəzər beşliyi" dövlətlərinin başçıları Qazaxıstanın Aktau şəhərində V Zirvə toplantısında mühüm sənədlər imzaladılar. Bu hadisəyə geniş reaksiya verilməsi tam gözlənilən idi. Çünki Xəzərin hüquqi statusunun qeyri-müəyyən qalması iqtisadi, enerji, siyasi, hərbi, ekoloji və geosiyasi risklər yaradırdı ki, bu da istənilən an regionda gərginliyə yol aça bilərdi. Hətta bir neçə dəfə hövzə ölkələri arasında münasibətlər Xəzərin hüquqi statusunun müəyyən edilməməsi ucbatından gərginləşmişdi.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Etiraf edək ki, münasibətlərdəki gərginlik Azərbaycan rəhbərliyinin təmkinli və qətiyyətli mövqeyi sayəsində hərbi münaqişəyə çevrilmədi. Həmin hadisələr artıq geridə qalıb və üzərlərində dayanmağa ehtiyac yoxdur. Lakin Xəzərin statusunun müəyyən edilməməsinin hansı təhlükəli nəticələr verə biləcəyi faktını da unutmaq olmaz. Hazırkı mərhələdə həm də ona görə ki, supergüclərin müxtəlif regionlarda nüfuz uğrunda mübarizəsi çox intensiv xarakter alıb.

Konkret desək, ABŞ, Rusiya və Çin hazırda beynəlxalq miqyasda çox fəal addımlar atırlar. Xəzərin strateji bir məkan olduğunu nəzərə alsaq, burada hər an böyük təsirləri olan qarşıdurmanın meydana gəlmə ehtimalının az olmadığı qənaətinə gəlmək mümkündür. Bu səbəblərdən Aktau sammitini siyasi liderlər haqlı olaraq “tarixi hadisə” kimi qiymətləndirirlər. Ekspertlər və KİV orqanları da onu geniş şərh edir, analizlər aparır və proqnozlar verirlər.

Lakin Konvensiyanın qəbul edilməsi ilə bütün məsələlərin tam həll edildiyini söyləmək olmaz. Xəzərin bəzi sahələrinin delimitasiyası, enerji yataqlarına sahibliklə bağlı fikir ayrılıqları və təhlükəsizlik sahəsində əməkdaşlıq üzrə mexanizmlərin tətbiqi hələ də əlavə danışıqlar tələb edir. Bu, Xəzər dənizinin hüquqi statusu məsələsinin dinamik proses olduğunu və qarşıdakı illərdə də diplomatik gündəmdə qalacağını göstərir.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi uzun illərdir region dövlətlərinin siyasi, iqtisadi və təhlükəsizlik maraqlarını birləşdirən ən mürəkkəb məsələlərdən biri olmuşdur. Xəzərin zəngin enerji resursları, geostrateji mövqeyi və beynəlxalq nəqliyyat dəhlizləri üçün daşıdığı əhəmiyyət onun status məsələsini təkcə beş sahilyanı dövlət üçün deyil, həm də qlobal siyasi aktorlar üçün strateji məsələlər sırasında saxlamışdır.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 80-83**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 80-83**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

Nəticə olaraq onu deyə bilərik, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi regionda uzunmüddətli sabitliyin formalaşdırılması, enerji təhlükəsizliyinin gücləndirilməsi və qarşılıqlı əməkdaşlıq mühitinin inkişafı üçün əsas şərtlərdən biridir. Bu prosesin uğurlu davamı sahilyanı dövlətlərin qarşılıqlı etimad, əməkdaşlıq və beynəlxalq hüquqa sadiqlik prinsiplərinə uyğun fəaliyyətindən asılı olacaqdır.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 84-86**
***Research in Science and Education*** **XI Republican Scientific Conference / 19 december, 2025 / 84-86**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Emin Əsədli**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
magistrant
https://orcid.org/0009-0009-6345-6914
eminsdli722@gmail.com

# Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun turizm potensialı

***Açar sözlər:*** *turizm potensialı, mövcud turistik zonalar, dövlətin dəstəyi, xarici investorlar, davamlı turist axını*
***Keywords:*** *tourism potential, existing tourist zones, government support, foreign investors, sustainable tourist flow*

Həm tarixi keçmişi, həm də yerləşdiyi coğrafi mövqe baxımından ölkəmizin turizm potensialı olduqca yüksəkdir. Ölkəmizin iqtisadi rayonlarının inkişaf dinamikasına nəzər yetirəndə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun turizm potensialının da olduqca yüksək olduğunu görərik. Təbii ki, otuz ilə yaxın bu regionun işğal altında olması digər iqtisadi sektorlar kimi turizm sektorunun da tamamilə məhv olmasına səbəb olmuşdur. Lakin Vətən müharibəsindən sonra bu ərazilərin işğaldan azad edilməsi, həmin regionda turizm sektorunun inkişafını daha da ön plana çıxarmışdır. Bu regionda Kəlbəcər, Laçın, Şuşa, Xankəndi kimi həm tarixi keçmişi ilə, həm də təbii coğrafi şəraiti ilə seçilən rayonların olması burada, demək olar ki, turizmin istənilən növünün inkişafına təkan verir. Nümunə olaraq mədəni, sağlamlıq, idman, dağ və s. turizm növlərini qeyd etmək olar.

Bu baxımdan tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun turizm potensialı, bu potensialdan istifadənin vacibliyi, dövlətin bu regionda turizmin inkişafına göstərdiyi

dəstək, səmərəli dəstək üsullarının və xarici investisiyanın cəlb edilməsi mexanizmlərinin araşdırılması, regionda davamlı olaraq yerli və xarici turist axınının təmin edilməsi yolları kimi məsələlərdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu yeraltı və yerüstü təbii sərvətləri, flora və faunası, tarixi abidələri ilə zəngindir. Xüsusilə müalicə əhəmiyyətli Kəlbəcərdə Qoturlu, İstisu və Şuşada Turşsu kimi bulaqların yerləşməsi sağlamlıq turizminin bu bölgələrdə potensialını daha da artırır. Bölgədə Kəlbəcər, Laçın dağ silsilələrinin, yüksək dağ yaylalarının, geniş meşə massivi zonalarının və Sərsəng su anbarının mövcudluğu həm dağ-mədən sənayesinin, həm də kurort-turizm infrastrukturunun inkişafı üçün əlverişli təbii-coğrafi şərait formalaşdırır. Mədəni-tarixi turizmin inkişafı potensialı isə olduqca yüksəkdir. Çünki Füzulidə Azıx mağarası, Şuşada qədim qala divarları, Şuşa məscidi, Qarabağ xanlarının iqamətgahı, Daşaltı dərəsi, M.P.Vaqifin məqbərəsi, Alban kilsəsi, Xankəndi şəhərinin tarixi abidələri, Kəlbəcərin Vəndi kəndində Gəncəsər monastrı və Laçın rayonunda qalalar, məbədlər və s. kimi tarixi abidələrin mövudluğu bölgənin həm tarixi-mədəni, həm də dini turizm potensialının yüksəkliyindən xəbər verir. Bundan əlavə, bu bölgənin Azərbaycanın poeziya və xalq musiqisinin diyarı olması, həmçinin, endemik bitkilərdən olan Xarıbülbül gülünün ölkəmizdə yeganə olaraq Şuşa şəhəri ərazisində bitməsi bölgəni və bu gülü musiqimizin rəmzinə çevirmişdir (Bilalov, Gülalıyev, 2015, s. 425-429). İşğal dövründə bölgədə yerləşən bir çox tarixi abidələr dağıdılmış, mədəniyyət müəssisələri isə ciddi ziyan görmüşdü. Bu isə həmin tarixi abidələrin və müharibədən qalan izlərin açıq səma altında muzey kimi qorunmasına, turizmin həm iqtisadi, həm də siyasi təbliğat vasitəsi kimi istifadə olunmasına şərait yaradır.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 84-86
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 84-86
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Regionda turizmin inkişafı üçün, təbii ki, infrastrukturun və nəqliyyat və rabitə sahələrinin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb edir. Otellər, restoranlar, tur agentlikləri və digər xidmət sektorlarının inkişafı isə bölgəyə turist axınının artmasına birbaşa töhfə vermişdir. Bu baxımdan postmüharibə dövründə dövlətin apardığı siyasəti olduqca uğurlu qiymətləndirmək olar. Çünki qısa müddət ərzində regionda telekommunikasiya şəbəkəsinin və yol infrastrukturunun sürətli bərpası həm yerli, həm də xarici turistlər üçün regionu daha əlçatan edir. Bu da Bərdə-Ağdam, Füzuli-Cəbrayıl-Zəngilan, Füzuli-Xocavənd-Şuşa-Laçın istiqamətlərində turizm marşrutlarının yaradılmasına əlverişli şərait yaradır. Füzuli, Zəngilan və Laçın rayonlarında hava limanlarının tikintisi bölgəyə xarici turistlərin axınına təkan vermişdir. Bu hava limanları vasitəsilə turistlər vaxta qənaət etməklə birbaşa həmin bölgəyə gələrək səfərlərini daha rahat və sürətli şəkildə həyata keçirə bilirlər.

Araşdırma nəticəsində bu qənaətə gəlmək olar ki, regionda turizmin inkişafına dövlətin dəstəyi olduqca yüksəkdir. Lakin turistlərin regiona davamlı axınının təmini və xarici investorların cəlb edilməsi üçün də müxtəlif fəaliyyət paketlərinin hazırlanması olduqca vacibdir. Bunun üçün bölgədə müxtəlif festivalların, beynəlxalq sərgilərin, turizm məhsullarının təqdimi kimi tədbirlərin keçirilməsi əsas fəaliyyət istiqamətlərindən olmalıdır.

## Ədəbiyyat

1. Bilalov, B.Ə., Gülalıyev, Ç.G. (2015). *Turizmin əsasları.* QHT nəşriyyatı.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 87-88**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 87-88**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Xuraman Hümbətova**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0006-3913-8586
humbatovax@gmail.com

# Tələbələrin özünüqiymətləndirmə səviyyələrinin akademik nailiyyətlərlə korelyasiyası

***Açar sözlər:*** *özünüqiymətləndirmə, akademik nailiyyət, korelyasiya, tələbə psixologiyası, motivasiya*
***Keywords:*** *Self-esteem, academic achievement, correlation, student psychology, motivation*

Müasir təhsil mühitində tələbələrin psixoloji vəziyyəti, özlərini necə qiymətləndirdikləri və akademik fəaliyyətə yanaşma tərzləri onların tədris nəticələrinə birbaşa təsir edən əsas faktorlardandır. Özünüqiymətləndirmə insanın öz qabiliy-yətləri, bilik səviyyəsi və dəyəri barədə formalaşan subyektiv fikirlər sistemidir və tələbələrin akademik motivasiyasının davamlılığında mühüm rol oynayır. Son illər aparılan tədqiqatlar göstərir ki, özünüqiymətləndirmə səviyyəsindəki dəyişikliklər tələbələrin akademik uğurlarında nəzərə çarpan fərqlər yarada bilir və bu məsələ psixoloji-pedaqoji tədqiqatlar üçün xüsusi aktuallıq kəsb edir. Tədqiqatın əsas məqsədi tələbələrin özünüqiymətləndirmə səviyyələri ilə onların akademik göstəriciləri arasındakı əlaqənin xarakterini müəyyənləşdirmək-dir. Bu məqsədə çatmaq üçün özünüqiymətləndirməni ölçən standart psixodiaqnostik metodikalardan və tədris nəticələrinin qiymətləndirilməsi üçün rəsmi akademik göstəricilərdən istifadə olunmuşdur. Araşdırmada iştirak edən tələbələr müxtəlif kurs və

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 87-88
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 87-88
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

ixtisasları əhatə edən seçmə qrupundan ibarət olmuşdur ki, bu da nəticələrin daha geniş kontekstdə interpretasiyasına imkan vermişdir. Tədqiqat zamanı korelyasiya analizi tətbiq edilmiş, özünü-qiymətləndirmə səviyyələrinin akademik nailiyyətlərlə necə və hansı istiqamətdə dəyişdiyi müəyyənləşdirilmişdir. Analizlər göstərmişdir ki, özünüqiymətləndirmə səviyyəsi artan tələbələrdə akademik nailiyyətlərin yüksəlmə tendensiyası müşahidə olunur. Yəni özünə inamı daha yüksək olan tələbələrin tədris prosesində daha məsuliyyətli, motivasiyalı və məqsəd-yönlü davrandıqları müəyyən edilmişdir. Bununla yanaşı, özünüqiymətləndirməsi aşağı olan tələbələrdə tədris prosesinə inamsızlıq, özünüifadə çətinliyi və nəticə etibarı ilə akademik performansda zəiflik müşahidə olunmuşdur.

Tədqiqat nəticələrinə əsaslanaraq demək olar ki, özünü-qiymətləndirmə yalnız tələbənin psixoloji vəziyyətini deyil, həm də onun tədrisdəki davranış modelini formalaşdıran vacib amildir. Bu baxımdan, təhsil müəssisələrində tələbələrin özünə olan münasibətini gücləndirən psixoloji dəstək proqramlarının təşkil olunması, akademik motivasiyanın artırılması və özünəinam hissinin inkişaf etdirilməsi tədris nəticələrinin yüksəldilməsinə birbaşa töhfə verə bilər. Təhsil mühitində belə yanaşmaların tətbiqi tələbələrin həm emosional rifahını, həm də akademik uğurunu dəstəkləyəcək kompleks inkişaf mühitinin formalaşdırılmasına xidmət edir.

Aparılan tədqiqatın nəticələri göstərir ki, özünüqiymətləndirmə səviyyəsi tələbələrin akademik nailiyyətlərinin proqnozlaşdırılmasında əhəmiyyətli psixoloji göstəricilərdən biridir. Bu əlaqənin elmi şəkildə müəyyənləşdirilməsi tələbələrin inkişaf strategiyalarının düzgün qurulmasına, təlim prosesində psixoloji amillərin nəzərə alınmasına və ümumilikdə akademik mühitin keyfiyyətinin artırılmasına töhfə verir.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 89-91
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 89-91
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Jalə Salmanova**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0005-5740-019X
salmanovajale3@gmail.com

# Koqnitiv strategiyaların qiymətləndirilməsinə dair

***Açar sözlər:*** *koqnitiv strategiyalar, öyrənmə strategiyaları, fərdi fərqlər, metakoqnitiv nəzarət, psixometrik metodlar, psixoloji qiymətləndirmə, idrak prosesləri, yaddaş strategiyaları, metakoqnitiv müsahibə*
***Keywords:*** *cognitive strategies, learning strategies, individual differences, metacognitive control, psychometric methods, psychological assessment, cognitive processes, memory strategies, metacognitive interview*

Koqnitiv strategiyaları bilmək və düzgün qiymətləndirmək tələbələrin öyrənmə bacarıqlarını inkişaf etdirmək üçün çox böyük əhəmiyyət daşıyır. Bu strategiyalar tələbənin informasiyanı necə analiz etməsi, yadda saxlaması, qarşıya qoyulan problemləri həll etməsi və öyrəndiklərini strukturlaşdırması ilə sıx bağlıdır. Koqnitiv strategiyaları düzgün qiymətləndirmək həm tələbələrə öyrənmə prosesini daha məqsədyönlü qurmağa, həm də müəllimlərə tədrisi daha səmərəli və keyfiyyətli təşkil etməyə imkan verir. Lakin hazırda bu sahədə praktikada kifayət qədər yanaşmalar hazırlanmayıb. Buna görə mövzu həm praktik əhəmiyyətinə, həm də aktuallığı ilə seçilir. Koqnitiv strategiyalar dedikdə təhsildə tələbələrin öyrənmə prosesini daha səmərəli etmək üşün istifadə olunan üsulların, yanaşmaların ümumi adı nəzərdə tutulur. Mayer, Weinstein koqnitiv strategiyaları infor-

masiya işləmə, təşkil etmə və təkrar etmə kimi kateqoriyalara ayırır. Oxford isə onları əlavə strategiyalar, metakoqnitiv strategiyaları və yadda saxlama strategiyaları olaraq təsnif edir. Bu strategiyaların öyrənilməsi, meta-kognition anlayışı ilə sıx bağlıdır. Meta-kognition fərdin öz öyrənmə prosesini başa düşməsi, tənzimləməsi və planlaması deməkdir. Öyrənməni fəal, inkişaf yönümlü və interaktiv proses kimi təsvir edən Jean Piaget və Lev Vygotsky-nin nəzəriyyələri bu yanaşmanın əsasını təşkil edir.

Bir çox tədqiqatlar göstərir ki, bu strategiyaların tədrisi tələbələrin uğuruna birbaşa və əhəmiyyətli dərəcədə təsir göstərir. Fərqli yaş qrupları və fənlərdə tətbiq olunan bu strategiyalar tələbələrin fərdi xüsusiyyətlərinə uyğunlaşmalıdır. Bunun üçün müxtəlif qiymətləndirmə üsulları olan: sorğular, testlər, müşahidələr kimi müxtəlif qiymətləndirmə üsullarından istifadə olunur. Bu tədqiqatda sistemli yanaşma tətbiq olunmuşdur ki, nəticələr daha dolğun və etibarlı olsun.

İştirakçılar: tədqiqatda müxtəlif ixtisaslaşma və yaş qruplarından olan tələbələr iştirak etmişdir. Fərqli koqnitiv xüsusiyyətlər əhatə olsun deyə, onların seçimi məqsədli və ya təsadüfi üsulla aparılmışdır. Məlumatlar tələbələrin koqnitiv və öyrənmə strategiyalarını müəyyən etmək üçün müşahidə, sorğu-anketlər və portfoliolar vasitəsilə toplanmışdır.

Tədqiqat nəticəsində tələbələrin koqnitiv strategiyalarının müxtəlif səviyyələrdə inkişaf etdiyi müəyyən edilmişdir. Son gəlinən nəticəyə görə, tələbələrin çox hissəsi təkrar etmə və məlumatı təşkil etmə strategiyalarını daha aktiv istifadə edirlər. Lakin meta-koqnitiv və problemləri həll etmə strategiyaları daha zəif inkişaf edib. Təhlilə əsasən, koqnitiv strategiyaların istifadə səviyyəsi tələbənin fərdi öyrənmə üslubundan və fənn üzrə hazırlığından asılıdır. Məsələn, müşahidələrə görə, daha fəal, müstəqil öyrənən tələbələr meta-koqnitiv strategiyalara daha

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

çox üstünlük verirlər. Sorğulardan belə nəticəyə gəlmək olar ki, tələbələr öyrənmə strategiyalarını bilsələr belə, onları effektiv tətbiq edə bilmirlər.

Beləliklə, tədrisdə fərdi yanaşma gücləndirilməli və tələbələrin fərdi öyrənmə strategiyaları inkişafa təşviq edilmə-lidir. Qiymətləndirmə sistemi test, sorğu, müşahidə və portfolio kimi üsullarla davamlı şəkildə təkmilləşdirilməlidir. Öyrən-mənin səmərəliliyinin artırılması üçün təlim fərdi fərqlərə görə uyğunlaşdırılmalıdır. Əlavə olaraq, meta-koqnitiv bacarıqların inkişafı üçün planlama, təhlil və tənzimləməyə yönəlmiş tapşırıqlara yer verilməsi vacibdir.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 92-93
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 92-93
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Könül Bəhrəmova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0008-3259-8779
kbehramova@gmail.com

# Azərbaycan dili dərslərində idrak fəaliyyətinin yüksəldilməsinin praktik yolları

***Açar sözlər:*** *müasir təhsil sistemi, metodlar, şagird modeli, motivasiya*
***Keywords:*** *modern education system, methods, student model, motivation*

Müasir təhsil sistemində yalnız məlumat ötürən deyil, düşünən, yaradan və tətbiq edən şagird modeli əsas götürülür. Bu baxımdan ibtidai təhsilin mahiyyəti təkcə bilik vermək deyil, həm də düşüncə tərzini formalaşdırmaq, öyrənməyə maraq oyatmaq və şagirdin daxili potensialını üzə çıxarmaqdır. İdrak fəaliyyəti – yəni öyrənmək, başa düşmək, əlaqə qurmaq, səbəb və nəticə arasında düşüncə aparmaq bacarığı – məhz bu məqsədlə təhsilin mərkəzinə çevrilməlidir. Bu fəaliyyətin yüksəldilməsi isə sadəcə nəzəri biliklərlə deyil, dərs prosesində tətbiq olunan praktiki yanaşmalarla mümkün olur.

Daha sonra, problemyönlü və layihə əsaslı dərs nümunələri şagirdin araşdırma aparmaq, məlumat toplamaq və təqdim etmək bacarığını inkişaf etdirir. Məsələn, "mənim doğma kəndim haqqında təqdimat hazırla" tapşırığı uşağın həm dil, həm düşüncə, həm də tədqiqat fəaliyyətini hərəkətə gətirir. Belə tapşırıqlar şagirdin öz fikrini əsaslandırmaq, ardıcıl izah etmək, mövzunu tədqiq etmək bacarığını formalaşdırır.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 92-93
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 92-93
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Əldə olunan nəticələr göstərir ki, bu tip metodların tətbiqi zamanı şagirdlərin dərsə olan münasibəti dəyişir, onlar müstəqil düşünməyə və fikirlərini sərbəst ifadə etməyə meyilli olurlar. Həmçinin, müəllimlər tərəfindən tətbiq edilən mükafatlandırma sistemi, bəyənmə və şifahi motivasiya üsulları da şagirdin dərsə münasibətini və aktivliyini artırır.

İkinci əsas məqam – fəal təlim metodlarının tətbiqidir. Azərbaycan dili dərslərində müzakirə, debat, mətn üzərində analiz, söz yaradıcılığı, fikir davam etdirmə kimi fəaliyyətlər şagirdin düşüncə çevikliyini və məntiqi nəticə çıxarma bacarığını formalaşdırır. Məsələn, "mətnin davamını yaz" tapşırığı şagirdin həm yaradıcılığını, həm də mətnin məzmununu dərk etmə səviyyəsini ölçmək üçün olduqca effektlidir. Bu tip tapşırıqlar zamanı şagird passiv dinləyici deyil, aktiv iştirakçı olur.

İnteraktiv texnologiyaların tətbiqi də idrak fəaliyyətini yüksəltməyin müasir yollarındandır. Slaydlar, animasiyalar, qısa videolar, interaktiv lövhə və onlayn tapşırıqlar dərsi daha cəlbedici edir. Bu yanaşma xüsusilə vizual və kinestetik tipli şagirdlərin daha yaxşı mənimsəməsinə şərait yaradır. Misal üçün, dilin bölmələri ilə bağlı fləş-kartlar və ya söz oyunu proqramları həm əyləncəli, həm də öyrədicidir.

Sonda qeyd etmək olar ki, Azərbaycan dili dərslərində idrak fəaliyyətinin yüksəldilməsi üçün məqsədyönlü və sistemli pedaqoji fəaliyyət vacibdir. Müəllim dərs prosesində təkcə bilik ötürən deyil, eyni zamanda düşüncəyə yol göstərən, şagirdi yönləndirən və ruhlandıran bir şəxs kimi çıxış etməlidir. Tədris mühiti, metod seçimi, şagirdlə ünsiyyət və tətbiq olunan texnologiyalar idrak fəaliyyətini inkişaf etdirmək üçün əsas vasitələrdir. Bu vasitələrdən düzgün istifadə olunarsa, Azərbaycan dili dərsləri şagirdin təkcə dil bacarıqlarını deyil, ümumilikdə zehni inkişafını təmin edən güclü alətə çevrilə bilər.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 94-97**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 94-97**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Ləman Qurbanlı**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-9418-8313
qurbanovaleman86@gmail.com

# Müəllim fəaliyyətinin yaradıcı mühitin formalaşmasındakı rolunun təhlili

***Açar sözlər:*** *müəllim fəaliyyəti, yaradıcı mühit, təlim metodu, tənqidi düşüncə, motivasiya, innovativ yanaşma*
***Keywords:*** *teacher activity, creative environment, teaching method, critical thinking, motivation, innovative approach*

Müəllim fəaliyyətinin yaradıcı mühitin formalaşmasındakı rolu pedaqoji prosesin mahiyyətini müəyyən edən əsas amillərdən biridir. Yaradıcı mühit dedikdə təlim prosesində şagirdlərin sərbəst düşünmə, fərdi yanaşma, problem həll etmə, yeni ideyalar irəli sürmə və öz potensiallarını azad şəkildə ifadə etmə imkanlarının genişləndirildiyi pedaqoji şərait nəzərdə tutulur. Belə bir mühitin yaranması təsadüfi proses deyil; o, müəllimin məqsədyönlü pedaqoji fəaliyyəti, metodik hazırlığı və şəxsi yaradıcı mövqeyi ilə birbaşa əlaqədardır.

"Müəllimin yaradıcı mühitin təşəkkülündəki rolu ilk növbədə onun təlim prosesinə yanaşma tərzi ilə müəyyən olunur. Müəllim şəxsiyyəti, onun pedaqoji dünyagörüşü, peşəkarlıq səviyyəsi və innovativ düşünmə bacarığı sinifdə yaradıcı atmosferin formalaşmasına ciddi təsir göstərir. Müasir təhsil konsepsiyalarında müəllim yalnız bilik ötürən deyil, həm də təşkilatçı, bələdçi, motivator və yaradıcı fəaliyyətin stimullaşdırıcısı kimi çıxış edir. Bu baxımdan müəllim şagirdlərin fərdi maraqlarını, qabiliyyətlərini, psixoloji xüsusiyyətlərini nəzərə

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

alaraq təlim prosesini elə qurmalıdır ki, hər bir şagird öz yaradıcılıq potensialını sərbəst şəkildə reallaşdıra bilsin.”

Yaradıcı mühitin formalaşmasında müəllimin seçdiyi təlim metodları xüsusi əhəmiyyət daşıyır. Problemli təlim, layihə metodu, beyin həmləsi, tədqiqat yönümlü tapşırıqlar, debat və diskussiya fəaliyyətləri şagirdlərin tənqidi və yaradıcı təfəkkürü-nü aktivləşdirən əsas metodlardır. Müəllim bu metodlardan məqsədəuyğun şəkildə istifadə etdikdə şagirdlərin dərsə motivasiyası artır, onlar bilikləri sadəcə qəbul etmir, həm də yenidən qurur, təhlil edir, müqayisə edir və yeni nəticələr çıxarırlar. Yaradıcı mühitdə müəllimin rolu yalnız prosesin idarə olunması ilə məhdudlaşmır, həm də şagirdlərin təşəbbüskarlığını dəstəkləməyi, onların özünəinamını gücləndirməyi əhatə edir. Müəllimin kommunikativ bacarıqları da yaradıcı mühitin formalaşmasında mühüm rol oynayır. Açıq ünsiyyət, demokratik münasibət, şagird fikirinə hörmət və əməkdaşlıq atmosferi sinifdə psixoloji təhlükəsizlik mühitini yaradır. Şagird öz fikrinin dəyərli olduğunu hiss etdikdə, səhv etməkdən qorxmadıqda onun yaradıcı fəaliyyəti təbii şəkildə aktivləşir. Bu, pedaqoji prosesdə emosional rahatlığın və pozitiv əlaqələrin yaradıcı təfəkkürün açılmasına təsirini göstərir. Müəllimin özünün yaradıcı fəaliyyəti – yeni təlim materiallarının hazırlanması, interaktiv resurslardan istifadə, vizual və praktik tapşırıqların yaradılması – şagirdlər üçün nümunəvi xarakter daşıyır. “Şagird müəllimin fəaliyyətində yaradıcılıq müşahidə etdikcə, təbii olaraq onun davranış modelini mənimsəyir və daha fəal, araşdırıcı mövqe tutur. Beləliklə, müəllim həm yaradıcı mühitin təşkilatçısı, həm də ona istiqamət verən əsas şəxs kimi çıxış edir. Müəllim fəaliyyətinin yaradıcı mühitin formalaşmasındakı rolu kompleks pedaqoji amillərin və metodoloji yanaşmaların məcmusudur. Bu mühitin keyfiyyəti müəllimin peşəkarlığı, şəxsiyyət keyfiyyətləri, təlim prosesinin quruluşu və

şagirdlərlə qarşılıqlı münasibətlərindən asılı olaraq formalaşır. Yaradıcı mühitin sistemli şəkildə təşkili müasir təhsilin əsas hədəflərindən biri olan yaradıcı düşünən, təşəbbüskar və özünü reallaşdıran şəxsiyyətin formalaşmasına şərait yaradır."

Müəllim fəaliyyətinin yaradıcı mühitin formalaşmasındakı rolunun digər mühüm aspekti onun pedaqoji liderlik və təşəbbüskarlıq qabiliyyətləri ilə bağlıdır. Müəllim yalnız dərsi idarə edən şəxs deyil, həm də şagirdlərin yaradıcılıq fəaliyyətini təşviq edən mentor rolunu daşıyır. Bu rol müəllimin peşəkarlığı, innovativ təcrübələri və fərdi yanaşması ilə birbaşa bağlıdır. Müəllim şagirdlərin fərdi bacarıqlarını və maraqlarını nəzərə alaraq dərs prosesini çevik və elastik təşkil etdikdə, sinifdə həm əməkdaşlıq, həm də müstəqil araşdırma mühiti formalaşır. "Yaradıcı mühitin təşkili müəllimin metodik arsenalının zənginliyindən də asılıdır. Müasir pedaqoji texnologiyalar, interaktiv metodlar, layihə və problemyönümlü təlim yanaşmaları şagirdlərin tənqidi və yaradıcı düşüncəsini inkişaf etdirməkdə əsas vasitədir. Müəllim bu metodları məqsədəuyğun və ardıcıl şəkildə tətbiq etdikdə, şagirdlər yalnız bilik əldə etmir, eyni zamanda onları analiz edir, müqayisə edir və yeni nəticələr çıxarırlar. Müəllimin öz yaradıcı fəaliyyəti – məsələn, dərs materiallarının fərdiləşdirilməsi, vizual və praktik tapşırıqların yaradılması və interaktiv resurslardan istifadə – şagirdlər üçün nümunə rolunu oynayır. Şagird müəllimin fəaliyyətində yaradıcılığı müşahidə etdikdə, onun davranış modelini mənimsəyir və daha fəal, təşəbbüskar mövqe nümayiş etdirir."

Psixoloji aspekt də əhəmiyyətlidir. Müəllim tərəfindən yaradılan açıq, demokratik və dəstəkləyici ünsiyyət mühiti şagirdlərin özünü ifadə etməsi, səhv etməkdən qorxmaması və fərdi ideyalarını sərbəst şəkildə təqdim etməsi üçün şərait yaradır. Bu isə nəticədə yaradıcı düşüncənin inkişafını sürətləndirir və müstəqil öyrənmə vərdişlərinin formalaşmasına səbəb olur.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 94-97**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 94-97**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

Müəllim fəaliyyətinin yaradıcı mühitin formalaşmasındakı rolu çoxşaxəlidir və kompleks pedaqoji amillərin birləşməsini tələb edir. Müəllimin peşəkarlığı, şəxsi keyfiyyətləri, metodik hazırlığı və şagirdlərlə qarşılıqlı əlaqəsi bu mühitin keyfiyyətini müəyyən edir. Sistemli şəkildə təşəkkül tapmış yaradıcı mühit isə müasir təhsilin əsas məqsədi olan təşəbbüskar, yaradıcı və özünü reallaşdıra bilən şəxsiyyətlərin yetişdirilməsinə xidmət edir.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 98-101**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 98-101**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Ləman Şahbazlı**
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0009-0367-2965
lemanshahbaz2512@gmail.com

# Sosial fəallığın inkişafında motivasiya və emosional mühitin pedaqoji təsiri

***Açar sözlər:*** *sosial fəallıq, motivasiya, emosional mühit, pedaqoji təsir, sosial bacarıqlar, sosial məsuliyyət*

***Keywords:*** *social activity, motivation, emotional environment, pedagogical influence, social skills, social responsibility*

Müasir təhsil mühitində sosial fəallığın inkişafı cəmiyyətin sosial-iqtisadi dinamizmini təmin edən əsas pedaqoji prioritetlərdən biri kimi çıxış edir. Şagird və tələbələrin sosial proseslərdə iştirak meyli onların motivasiya səviyyəsi və tədris mühitinin emosional keyfiyyəti ilə birbaşa bağlıdır. Təlim prosesində formalaşdırılan müsbət emosional atmosfer, eləcə də məqsədyönlü motivasiya strategiyaları sosial davranışın aktivləşməsinə, sosial məsuliyyət və təşəbbüskarlıq kimi mühüm keyfiyyətlərin inkişafına şərait yaradır. Bu baxımdan, motivasiya və emosional mühitin pedaqoji təsirinin araşdırıl-ması sosial fəallığın mahiyyətinin və inkişaf mexanizmlərinin elmi əsaslarla izah olunmasına imkan verir.

Sosial fəallığın inkişafı şəxsiyyətin sosial mühitə adaptasiyası, ünsiyyət bacarıqlarının formalaşması və ictimai proseslərdə iştirak meylinin güclənməsi ilə səciyyələnir. Bu prosesin effektiv həyata keçirilməsi motivasiya və emosional mühit kimi iki əsas pedaqoji faktorun qarşılıqlı təsirindən asılıdır. Tədris

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

mühitində formalaşdırılan motivasiya şagirdlərin sosial fəaliyyətə yönəlməsində həlledici rol oynayır. Daxili motivasiyanın yüksək olması şəxsin sosial təşəbbüslərdə könüllü iştirakını təmin edir, xarici motivasiya isə sosial fəallığın qısa müddətli stimulyasiyası üçün əhəmiyyətli hesab olunur.

Emosional cəhətdən komfortlu təlim mühiti sosial fəallığın artırılmasında mühüm psixoloji baza yaradır. Müəllim-şagird münasibətində qarşılıqlı hörmət, empatiya və dəstəyin mövcudluğu şagirdlərin özünüifadə imkanlarını genişləndirir, sosial müzakirələrdə iştirak meylini gücləndirir. Emosional təhlükəsizlik mühüm amil kimi şagirdin qınanma qorxusu olmadan təşəbbüs göstərməsinə şərait yaradır. Bu, sosial bacarıqların formalaşmasında motivasiyanın təsirini daha da artırır. Motivasiya və emosional mühitin pedaqoji inteqrasiyası aktiv təlim metodlarının tətbiqi ilə daha güclü şəkildə özünü göstərir. Layihə əsaslı təlim, debat, qrup işi kimi metodlar şagirdlərə həm emosional dəstək, həm də fəaliyyət üçün motivasiya verərək sosial fəallığın inkişafını təşviq edir. Bu mühitdə şagirdlər əməkdaşlıq etməyi, sosial məsuliyyət hissini və ictimai problemlərə həssas yanaşmanı öyrənirlər. Beləliklə, motivasiya ilə emosional mühitin sinerjisi sosial fəallığın səmərəli formalaşması üçün kompleks pedaqoji mexanizm yaradır.

Mövcud pedaqoji araşdırmalar göstərir ki, sosial fəallığın yüksəlməsi üçün motivasiya və emosional mühit təkcə psixoloji faktor kimi deyil, həm də öyrənmə prosesini təşkil edən əsas pedaqoji mexanizmlərdən biri kimi çıxış edir. Bir çox tədqiqatlarda sübut olunub ki, şagirdin sosial davranışı motivasiya səviyyəsi yüksəldikcə daha aktiv və məqsədyönlü olur. Məsələn, layihə fəaliyyətinə cəlb olunan şagirdlərdə daxili motivasiyanın artması onların qrup işində daha fəal rol almasına gətirib çıxarır. Bu isə sosial məsuliyyətin və əməkdaşlıq vərdişlərinin möhkəmlənməsinə səbəb olur.

**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

Emosional mühitin təlimdə rolu da real məktəb təcrübəsində öz təsdiqini tapır. Müşahidələr göstərir ki, müəllim tərəfindən dəstək və anlayış görən şagirdlər ünsiyyətə daha açıq olur, sosial təşəbbüslərdən çəkinmirlər. Əksinə, emosional baxımdan gərgin və ya tənqidə həssas olan mühit şagirdlərin sosial aktivliyini aşağı salır. Bu səbəbdən müəllim tərəfindən yaradılan emosional təhlükəsizlik sosial fəallığın formalaşmasının əsas şərtlərindən biri hesab olunur.

Aparılmış praktik araşdırmalarda müəyyən edilib ki, məktəb mühitində tətbiq olunan aktiv təlim metodları şagirdlərin həm motivasiyasını artırır, həm də müsbət emosional atmosfer yaradır. Xüsusilə, sosial layihələr, könüllülük tədbirləri və müzakirələr şagirdlərin cəmiyyətə münasibətini formalaşdırır və onların real sosial situasiyalarda iştirakını gücləndirir. Bu fəaliyyətlər zamanı şagirdlər həm pozitiv emosiyalar yaşayır, həm də fəaliyyət nəticəsində əldə etdikləri uğurlarla motivasiya səviyyələrini artırırlar.

Real tədris təcrübəsi sübut edir ki, sosial fəallığın inkişafı üçün motivasiya və emosional mühit bir-birini tamamlayan iki əsas faktordur. Motivasiya şagirdi fəaliyyətə sövq edir, emosional mühit isə bu fəaliyyətin rahat və təhlükəsiz şəkildə həyata keçirilməsinə imkan yaradır. Bu iki amilin birlikdə tətbiqi sosial məsuliyyətli, ünsiyyətcil və aktiv şəxsiyyət formalaşdırılması üçün effektiv pedaqoji model hesab olunur.

Sosial fəallığın inkişafı motivasiya və emosional mühitin pedaqoji cəhətdən düzgün təşkilinə bilavasitə bağlıdır. Motivasiya şagirdin sosial fəaliyyətə marağını artırır, onun təşəbbüskarlığını və məsuliyyət hissini gücləndirir. Eyni zamanda, təlim prosesində yaradılan müsbət emosional mühit şagirdlərin özünü rahat hiss etməsinə, ünsiyyətə açıq olmasına və sosial situasiyalara inamla qoşulmasına şərait yaradır. Real tədris təcrübəsi

**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

göstərir ki, bu iki faktorun birgə tətbiqi şagirdlərin sosial bacarıqlarının daha səmərəli formalaşmasına imkan verir.

Beləliklə, motivasiya və emosional mühit sosial fəallığın inkişafında bir-birini tamamlayan əsas pedaqoji vasitələrdir. Onların sistemli şəkildə tətbiqi həm təlimin keyfiyyətini yüksəldir, həm də cəmiyyətə uyğunlaşmış, aktiv və sosial məsuliyyət daşıyan şəxsiyyətin formalaşmasını təmin edir. Bu nəticələr göstərir ki, sosial fəallığın artırılmasına yönəlmiş pedaqoji strategiyalar motivasiya və emosional mühitin balanslı şəkildə qurulmasına əsaslanmalıdır.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 102-105**
***Research in Science and Education*** **XI Republican Scientific Conference / 19 december, 2025 / 102-105**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Çingiz Məmmədzadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0005-4210-8479
chingiz.mamedzade.tarlan@gmail.com

# Rusiya-Ukrayna müharibəsinin yaratdığı yeni geosiyasi və hərbi-siyasi reallıqlar

***Açar sözlər:*** *Rusiya-Ukrayna müaharibəsi, geosiyası dəyişikliklər, enerji təhlükəsizliyi, qlobal güc balansı, hərbi müdaxilə*
***Keywords:*** *Russia-Ukraine war, geopolitical changes, energy security, global power balance, military intervention*

Rusiya-Ukrayna müharibəsi XXI əsrin ən mühüm geosiyası hadisələrindən biridir. 2022-ci ildə başlayan bu müharibə yalnız iki ölkə arasında hərbi qarşıdurma deyil, həm də beynəlxalq sistemdə yeni güc balansının formalaşmasına səbəb olmuşdur. Mövzuda müharibənin beynəlxalq münasibətlər, enerji təhlükəsizliyi, qlobal iqtisadiyyat, regiondakı siyasi nizam və hərbi strategiyalar üzrərində yaratdığı təsirlər araşdırılır.

Rusiya-Ukrayna qarşıdurması postsovet məkanında baş verən ən genişmiqyaslı hərbi münaqişə kimi, beynəlxalq təhlükəsizlik sistemini və regional güc balansını köklü şəkildə dəyişdirmişdir. 2014-cü ildə Krım yarımadasının Rusiya tərəfindən ilhaqı ilə başlayan proses 2022-ci ildə tammiqyaslı müharibəyə çevrildi. Bu hadisə yalnız Şərqi Avropa regionunda deyil, həm də qlobal səviyyədə yeni geosiyasi və hərbi-siyasi reallıqların formalaşmasına səbəb  olmuşdur. Rusiya-Ukrayna müharibəsi müasir beynəlxalq münasibətlər sistemində mühüm dönüş nöqtələrindən biri kimi qiymətləndirilir. Bu münaqişə

yalnız regional təhlükəsizlik balansına deyil, həm də qlobal geosiyasi konfiqurasiyaya təsir göstərmişdir. Müharibə nəticəsində Avropa və Avrasiya regionlarında yeni hərbi-siyasi konfiqurasiyalar yaranmış, beynəlxalq təşkilatların strategiyaları yenidən formalaşdırılmışdır. Rusiya – Ukrayna müharibəsinin konkret olaraq Avropada yaratdığı hərbi-siyasi reallıqları mahiyyət etibarı ilə ciddi və fundamental hesab etmək olar.

Geosiyasi baxımdan Ukraynanın yerləşdiyi coğrafi mövqe Avropanın təhlükəsizlik sistemində həlledici əhəmiyyətə malikdir. Ukraynanın Polşa, Slovakiya, Macarıstan, Belarus və Rumıniya ilə həmsərhəd olması, eyni zamanda Azov və Qara dənizlərə çıxış imkanları bu ölkəni geosiyasi baxımdan strateji mərkəzə çevirir. Halford Makkindirin "Heartland" nəzəriyyəsinə əsasən, Avrasiya materikinin mərkəzi bölgəsinə nəzarət edən güc dünyaya nəzarət etmə potensialına sahibdir. Bu kontekstdə Ukraynanın "Heartland"a yaxınlığı, xüsusilə Rusiyanın təhlükəsizlik və təsir dairəsi baxımından əhəmiyyət kəsb edir.

Halford Makkinderin "Heartland" nəzəriyyəsi xüsusulə diqqətə layiqdir. O, Avrasiya materikinin mərkəzini - Heartland bölgəsini – qlobal güc balansında həlledici ərazi kimi qiymətləndirirdi. Bu nəzəriyyəyə əsasən, kim Heartland-a nəzarət edərsə, dünya hökmranlığını ələ keçirməyə bir addım daha yaxın olar. Bu kontekstdə, Mərkəzi və Şərqi Avropa ölkələri, eləcə də Qara və Baltik dənizləri ətrafındakı geostrateji ərazilər böyük güclərin maraq dairəsində olmuşdur. ABŞ və Rusiya bu ərazilərdə təsir dairələrini genişləndirmək üçün müxtəlif vasitələrə əl atmış, xüsusilə Rusiya NATO-nun Şərqə doğru genişlənməsini təhlükə kimi qəbul edərək Ukraynaya hərbi müdaxiləsini geosiyasi zərurət kimi əsaslandırmağa çalışmışdır. Bu çərçivədə Qara dəniz və Aralıq dənizi istiqamətində hərbi mövcudluğun artırılması Rusiya üçün strateji önəm

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 102-105
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 102-105
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

kəsb etmişdir. Rusiya hərbi təsirini artırmaq üçün Qara dəniz və Aralıq dənizi ətrafında hərbi donanmalarını yerləşdirib və Baltik dənizinə yaxın yerləşməsi də mühüm faktor olub.

Rusiya-Ukrayna müharibəsi qlobal beynəlxalq münasibətlər sistemində dərin və çoxşaxəli dəyişikliklərə səbəb olmuşdur. Bu müharibə təkcə iki dövlət arasında silahlı münaqişə deyil, həm də Avrasiya məkanında geosiyasi, hərbi-siyasi və enerji təhlükəsizliyi baxımından yeni reallıqlar yaradan prosesdir. Halford Makkindirin və Alfred Mahanın klassik geosiyasi nəzəriyyələri bu prosesləri təhlil etmək üçün mühüm nəzəri baza təşkil edir və müharibənin məhz Avrasiya məkanında baş verməsi bu nəzəri yanaşmaların aktuallığını bir daha sübut edir. Müharibə nəticəsində: Rusiya öz təsir dairəsini qorumaq üçün hərbi və strateji resurslarını cəmləmiş, Ukrayna isə qərbyönlü inteqrasiyasını davam etdirərək beynəlxalq dəstək qazanmağa çalışmışdır, NATO və Aİ-nin regiondakı rolu artmış, Qara dəniz və Aralıq dənizi ətrafında hərbi balans yenidən qurulmuş, Avropanın enerji təhlükəsizliyi konsepsiyası yenidən nəzərdən keçirilmişdir.

Müharibənin müxtəlif geosiyasi, hərbi-siyasi və təhlükəsizlik aspektləri hər bir bölgənin vəziyyətini yenidən qurmuş və müxtəlif regional güclərin siyasi seçimini ciddi şəkildə təsir etmişdir. Bu, yalnız iki dövlət arasındakı münaqişə olmaqla kifayətlənməyib, bütün beynəlxalq münasibətlər sistemini sarsıdan bir hadisəyə çevrilmişdir.

İlk növbədə, müharibənin geosiyasi nəticələri özünü dərhal göstərmişdir. Ukrayna, həm Avrasiya məkanında, həm də Qərb ilə Rusiyanın qarşıdurmasında strateji bir mövqe almışdır. Heartland nəzəriyyəsi kontekstində Ukraynanın yerləşdiyi ərazi daha da vacib hala gəlmiş və bu münaqişə, Avropanın şərq sərhədindəki güc mübarizəsini daha da qızışdırmışdır. Rusiyanın müahribəyə başlaması ilə əlaqədar olaraq, onun hərbi və

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 102-105**
***Research in Science and Education*** **XI Republican Scientific Conference / 19 december, 2025 / 102-105**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

siyasi məqsədləri daha da açıq şəkildə görünmüşdür. Bu addımlar həm regional, həm də qlobal güc balansını dəyişdirmişdir.

Təhlükəsizlik mühiti müharibənin nəticəsində köklü şəkildə dəyişmişdir. Yeni təhlükəsizlik alyansları formalaşmış, həmçinin, regional silahlanma yarışının intensivləşməsi müşahidə olunmuşdur. Bu, xüsusilə Cənubi Qafqaz və Şərqi Avropa kimi regionlarda daha çox nəzərə çarpır. Müharibənin yaratdığı qeyri-müəyyənlik və təhlükə, həmin regionlarda müttəfiqlik münasibətlərinin və hərbi strategiyaların yenidən nəzərdən keçirilməsinə səbəb olmuşdur.

Bütün bu amillər göstərir ki, Rusiya-Ukrayna müharibəsi sadəcə müasir beynəlxalq hüququn pozulması deyil, eyni zamanda, yeni qlobal nizamın formalaşmasında mühüm mərhələdir. Bu kontekstdə yaranan yeni geosiyasi və hərbi-siyasi reallıqlar, gələcəkdə beynəlxalq güc münasibətlərinin formalaşmasında əsas rol oynayacaqdır.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 106-109**
*Research in Science and Education* **XI Republican Scientific Conference / 19 december, 2025 / 106-109**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

**Nərmin Bağırova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-9935-5014
nerminbagirovaa01@gmail.com

# Ailədaxili münaqişələrin psixoloji səbəbləri və onların təsir mexanizmləri

***Açar sözlər:*** *ailədaxili münaqişə, psixoloji səbəblər, emosional intellekt, sosial-iqtisadi faktorlar, təsir mexanizmləri*
***Keywords:*** *family conflict, psychological causes, emotional intelligence, socio-economic factors, impact mechanisms*

Ailə cəmiyyətin sosial-mənəvi dayaqlarını müəyyən edən əsas institut olaraq insan şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Lakin ailədə fərqli xarakter xüsusiyyətləri, sosial gözləntilər, emosional tələbatların qarşılanmaması və ünsiyyət problemləri səbəbindən müxtəlif münaqişə halları meydana çıxır. Ailədaxili münaqişələr psixoloji baxımdan ailə üzvləri arasında emosional və sosial ziddiyyətlərin yaranması, münasibətlərin qarşıdurma müstəvisində dəyişməsi kimi izah olunur. Belə münaqişələrin əsas psixoloji səbəblərinin müəyyən edilməsi həm ailə münasibətlərinin sağlamlaşdırılmasına, həm də ailə üzvlərinin emosional rifahının artırılmasına xidmət edir.

Ailədaxili münaqişələrin yaranmasına təsir edən amillərdən biri fərdi xarakter xüsusiyyətləridir. İnsanların temperament tipi onların emosional reaksiya sürətini, davranış tərzini və münaqişələrə meyilliliyini müəyyən edir. Məsələn, impulsiv davranış xüsusiyyəti olan şəxslər mübahisəyə daha tez reaksiya verir, emosional nəzarət çətinliyi yaşadıqları üçün vəziyyəti konstruktiv şəkildə idarə etməkdə çətinlik çəkirlər. Bu hal dialoqun

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

münaqişəyə çevrilməsinə gətirib çıxarır və ailə münasibətlərinin stabilləşməsinə mane olur. Digər tərəfdən, fleqmatik və ya melanxolik tipli şəxslər daha çox emosiyalarını gizlətməyə meyilli olduğundan münaqişədən qaçma davranışı göstərə bilirlər ki, bu da problemlərin yığılmasına və gecikmiş, daha ağır qarşıdurmaların yaranmasına səbəb olur.

Ailədə baş verən münaqişələrin digər mühüm psixoloji səbəbləri qeyri-qənaətlənmiş emosional ehtiyaclarla bağlıdır. Sevgi, qayğı, hörmət, diqqət, empatiya kimi emosional tələbatların yetərincə qarşılanmaması insanın psixoloji gərginlik yaşamasına və özünü dəyərsiz hiss etməsinə səbəb olur. İnsanlar əslində problemi həll etməkdən çox, emosional müdafiə reaksiyasına girərək qarşı tərəfə qarşı ittiham yönləndirir, özünü müdafiə edən davranış nümayiş etdirir. Nəticədə, münaqişə real faktlar üzərində deyil, emosional narazılıqlar üzərində formalaşır və uzunmüddətli gərginlik yaradır. Belə hallarda insanlar özlərini anlaşılmamış hiss etdikləri üçün psixoloji olaraq qarşı tərəfi düşmən obrazında qavrayır, bu da münasibətləri daha da gərginləşdirir.

Ailədaxili ziddiyyətlərin yaranmasına təsir edən əsas psixoloji faktorlar arasında ünsiyyət problemləri də mühüm yer tutur. Bəzi ailələrdə emosiyaların açıq ifadəsi qadağan edildiyindən insanlar neqativ hisslərini gizlədir, daxildə yığılmış gərginlik daha sonra nəzarətsiz emosional partlayışlara səbəb olur. Aktiv dinləmə və empatiya bacarıqlarının yetərsiz olması tərəflərin bir-birini düzgün anlamamasına gətirib çıxarır. Belə halda münaqişə problemi həll etməyə deyil, emosional üstünlük nümayiş etdirməyə yönəlir. İnsanlar qarşı tərəfi dinləməməyə, onu anlamağa çalışmamaqla, öz mövqeyini müdafiə etməyə üstünlük verirlər. Bu isə konstruktiv dialoqu qeyri-mümkün edir.

*Elm və Təhsil Tədqiqatları* **XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 106-109**
***Research in Science and Education*** **XI Republican Scientific Conference / 19 december, 2025 / 106-109**
**https://doi.org/10.36719/2789-6919/XI/RK/2025**

Ailədə sosial rolların və stereotiplərin yanlış qavranılması da münaqişələrin yaranmasında mühüm psixoloji mexanizm kimi çıxış edir. Cəmiyyətdə kişinin yalnız maliyyə təminatçısı, qadının isə yalnız məişət işləri ilə məşğul olması kimi stereotiplər fərdlərin özlərini məhdud hiss etməsinə səbəb olur. Bu cür rolların sərt şəkildə ailəyə tətbiqi psixoloji gərginliklə nəticələnir, insanlar öz potensiallarını reallaşdıra bilmədikləri üçün narazılıq yaşayırlar. Nəticədə, ailə üzvləri bir-birini günahlandırır, qarşılıqlı inamsızlıq yaranır, bu isə münaqişə prosesini daha da gücləndirir. Münaqişələrin psixoloji mexanizmlərini təsvir edən digər amil xroniki stress, maddi gərginlik və fiziki yorğunluqdur. Stress hormonları emosional stabilliyi zəiflədir, empatiya və səbirlilik səviyyəsini aşağı salır. İnsan psixoloji gərginlik içində olduğu zaman münaqişəyə daha tez reaksiya verir, qarşı tərəfin davranışını təhdid kimi qavrayır. Beləliklə, gündəlik problemlər, yorğunluq və sosial-maddi çətinliklər ailədaxili münasibətlərə mənfi təsir göstərərək münasibətləri daha gərgin formaya salır.

Münaqişələrin təsir mexanizmi həm də insanın psixoloji müdafiə prosesləri ilə izah olunur. Freyd nəzəriyyəsinə görə, insanlar özlərini qorumaq üçün müxtəlif müdafiə mexanizmlərindən istifadə edirlər: məsələn, inkar, aqressiya, proyeksiya – yəni problemi özündə deyil, qarşı tərəfdə görmə. Bu mexanizmlər insanın öz məsuliyyətini qəbul etməsinə mane olur. Nəticədə problem real həll yolunu tapmaq əvəzinə emosional ittihamlar üzərində qurulur. Sosial öyrənmə nəzəriyyəsi də göstərir ki, ailə münasibətlərində müşahidə olunan davranışlar, xüsusən aqressiv ünsiyyət tərzi, uşaqlar tərəfindən model qəbul edilir və gələcək münasibətlərə ötürülür. Beləliklə, münaqişələrin psixoloji təsiri yalnız bir ailənin daxilində qalmır, nəsildən-nəslə davranış forması kimi ötürülür.

https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

Nəticə olaraq, ailədaxili münaqişələrin psixoloji səbəbləri çoxtərəfli olub, fərdi emosional vəziyyətlər, şəxsi xarakter xüsusiyyətləri, sosial gözləntilər, ünsiyyət çatışmazlıqları və stress faktorları ilə sıx bağlıdır. Bu münaqişələrin dərin psixoloji mexanizmlərlə formalaşması onların yalnız gündəlik fikir ayrılığı deyil, ailə üzvlərinin psixoloji təhlükəsizliyinə və münasibətlərin keyfiyyətinə təsir edən proses olduğunu göstərir. Münaqişələrin elmi əsaslarla öyrənilməsi və psixoloji maariflәndirmənin gücləndirilməsi ailə institutunun möhkəmlənməsinə, münasibətlərin sağlamlaşmasına və uşaqlar üçün əlverişli sosial mühitin formalaşmasına şərait yaradır.

*Elm və Təhsil Tədqiqatları* XI Respublika Elmi Konfransı / 19 dekabr, 2025 / 110-113
*Research in Science and Education* XI Republican Scientific Conference / 19 december, 2025 / 110-113
https://doi.org/10.36719/2789-6919/XI/RK/2025

**Nərmin Orucova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0001-1984-9691
nermin.orucova2@icloud.com

# Yeniyetmə aqressiyasının qarşısının alınmasında sosial-emosional bacarıqların inkişafı

***Açar sözlər:*** *yeniyetmə, aqressiya, sosial-emosional bacarıqlar, profilaktika, inkişaf*
***Keywords:*** *aadolescence, aggression, social-emotional skills, prevention, development*

